# UĞURSUZ PLAN

## İKİNCİ CİLD

## İslam İnqilabının Böyük Rəhbəri Həzrət Ayətullah Seyid Əli Xameneinin 2009-cu il fitnəsi haqda çıxışlarından seçmələr

**Tərcümə edən: Məhəmmədhüseyn Hərəndli**

# Üçüncü fəsil

## Seçkilərdən sonrakı hadisələr

### Seçkilərdən sonrakı hadisələrin mahiyyəti: Fitnə

Bunlar fitnə şəraiti yaradır, vəziyyəti qarışdırırlar. Qanuna tərəfdarlıq şüarı verirlər, lakin açıq şəkildə onun ziddinə işləyirlər. Şüarlarında imama tərəfdar olduqlarını bildirirlər, amma öz tərəfdarları arasında belə böyük bir günahın baş verməsinə imkan yaradırlar: imam təhqir olunur, imamın şəkli təhqir olunur. Bu, kiçik məsələ deyil. Düşmənlər buna çox sevinirlər. Yalnız sevinmirlər, təhlil də edir, o təhlilin əsasında qərar çıxarır, o qərar əsasında işləyir, milli maraqlarımızın və İran xalqının əleyhinə həvəslənirlər. Burada problemi yaradan amil həmin hiylə, mühitin dumanlı olması və Əmirəl-mömininin (ə) sözündə olandır: bir haqq sözü bir nahaq sözlə qarışdırırlar və haqq onu sevənlərə tanınmaz olur. Aydınlatmaq, meyar və ayrıc müəyyən etmək burada mənasını tapır.

Şübhəsiz ki, düşmən xalqı İslam quruluşundan ayırmaqda iflasa uğramışdır. Ötənilki seçkilərdə ölkənin qırx milyon əhalisi iştirak etdi; əslində İslam Respublikası quruluşunun və seçkilərin xeyrinə qırx milyonluq bir referendum keçirildi. Düşməni qəzəbləndirən bu idi. İğtişaşla onun təsirini məhv etmək istədilər, amma bacarmadılar. Xalq fitnənin qarşısında da dayandı. 2009-cu il fitnəsi ölkəni vaksinlədi, xalqı siyasi və ictimai mikroblar əleyhinə hazırladı, onun agahlığını artırdı.

# Fitnənin mənası

Dumanlı şərait sözügedən fitnə zamanıdır. Fitnənin mənası budur ki, bir qrup adam dost görkəmi və düşmən niyyəti ilə meydana atılıb mühiti qarışdırsın, bu qarışıq mühitdə əsl düşmən öz simasını gizlədib meydana atıla və zərbə vura bilsin. Əmirəl-möminin (ə) buyurub ki, nahaq çılpaq və xalis şəkildə gəlsə, haqqı istəyənlər çaşmazlar, onun nahaq olduğunu anlayarlar. Əgər haqq da açıq şəkildə meydana gəlsə, düşmən onu haqq olmadığına görə ittiham edə bilməz. Fitnəkar isə bir qədər haqdan və bir qədər nahaqdan götürüb bir-birinə qarışdırır. O zaman haqqı axtaran şəxslər də çaşır. Fitnə budur.

Bəs belə bir məsələ qarşısında çıxış yolu nədir? Sağlam ağıl və şəriət qətiyyətlə bəyan edir ki, çıxış yolu haqqı açıq şəkildə söyləməkdən ibarətdir. Siz seçki bəhanəsi ilə bir hərəkətin başlandığını, sonra bir düşmən adamının bu dumanlı şəraitə qoşulduğunu, sözü və şüarı daxilindən xəbər verən düşmən adamının meydana girdiyini gördüyünüzdə xətti müəyyən edin, sərhədi aydınlaşdırın. Hamının, ən çox da aparıcı şəxslərin üzərinə vəzifə düşür; aparıcı şəxslərin arasında da hamıdan çox dinləyicisi, hamıdan çox eşidəni olanların. Gərək sərhədlər aydınlaşsın və kimin nə dediyi bəlli olsun. Nahaq özünü meydanın toz-dumanı arasında gizlədib zərbə vura bilməsin və haqq cəbhəsi haradan zərbə vurulduğunu görsün. Buna görə aparıcı şəxslərin ikibaş danışması düzgün deyil. Aparıcı şəxslər sözlərini açıq deməlidirlər. Bu, xüsusi bir siyasi cinaha məxsus deyil, İslam quruluşu daxilində olan bütün cinahlar dünya hegemonlarının dəstəyinin məqbul olub-olmadığını açıq şəkildə müəyyən etsinlər. Hegemon başçılar, zalımlar, İslam ölkələrini işğal edənlər, Fələstində, İraqda, Əfqanıstanda və digər yerlərdə

məzlum insanları qətlə yetirənlər gəlib meydana atıldıqda, danışdıqda, mövqe bildirdikdə İslam Respublikası quruluşunun aparıcı şəxslərinin buna qarşılıq mövqeyi bəlli olmalıdır. Ondan üz çevirib "mən sizin düşməninizəm", "mən sizinlə müxalifəm" - deməyə razıdırlarmı?

Fitnə mühitində kimlərsə dilləri ilə açıq şəkildə İslamı və İslam Respublikası quruluşunun şüarlarını inkar etdikdə, əməlləri də respublikanı və seçkiləri sual altına saldıqda, bu məsələ cəmiyyətdə aşkar olduqda aparıcı şəxslərdən gözlənilən budur ki, mövqelərini müəyyən etsinlər. İkibaşlı danışmaq fitnəni aradan qaldırmağa və şəffaflıq yaratmağa yox, mühitin dumanlanmasına kömək edir. Şəffaflıq düşmənin düşməni, ona maneədir, dumanlı mühit isə düşmənə kömək edir. Bunun özü bir meyardır. Kim şəffaflığa kömək edir və kim dumanlılığa kömək edir; hamı bunu nəzərə alsın və meyar seçsin.

## 2009-cu il fitnəsi arxasındakı planlar

Mən sizə deyirəm: Bir neçə il ötəndən sonra beynəlxalq informasiya mənbələrinin qələmləri işə düşəcək və yazacaqlar. O gün bəlkə də mən olmayacağam, lakin sizlər olacaqsınız, 2009-cu il fitnəsinin arxasında necə böyük planların durduğunu eşidəcək və oxuyacaqsınız. Bu fitnə çox mühüm məsələ idi, məqsədləri çox böyük idi. Onlar İranı ələ keçirmək istəyirdilər. Fitnə amili olan bu şəxslər - küçələrə çıxanlar, yaxud onların bəzi sözçüləri əksərən bilmədən bu işə qoşulmuşdular. Lakin bəzi əllər bunları yönəldirdi və anlamırdılar. Bəzi adamların bu işə necə qoşulmasının və özləri bilmədən düşmənə necə kömək

etməsinin dəqiq psixoloji təhlilləri var, amma həqiqət dediyim kimidir. Bu, çox böyük bir iş idi. Bu işi siz gənclər yoluna qoydunuz.

Düşmənin planlaşdırdığı bu fitnənin müxtəlif cəhətlərini təhlil və izah etmək və aydınlatmaq üçün hələ çoxlu işlər görülməlidir. Düşmən çox dəqiq hesablamalar aparmışdı, lakin hesabları səhv çıxdı. Onlar İran xalqını tanımayıblar. Səhnə arxasındakı düşmən hər şeyi müşahidə etmişdi. Sizin fitnə başçıları adlandırdığınız bu şəxsləri düşmən səhnəyə itələmişdi. Təbii ki, günah etdilər. İnsan düşmənin oyuncağı olmamalı və tez məsələni anlamalıdır. Əgər əvvəldə diqqətsizlik etmişdilərsə də, sonradan anlayanda dərhal yolların dəyişməli idilər, amma dəyişmədilər. Lakin hər halda, əsas amil planları hazırlayan digər şəxslər idilər. Onlara görə İslam Respublikası məhv edilməli, yalnız dinin həqiqəti yox, hətta dini şüarlar da qalmamalı idi. Proqram belə idi. Qərara gəlmişdilər ki, əgər bacarsalar, hökuməti özləri istədikləri şəklə salsınlar; ondan sonrakı işləri də müəyyən etmişdilər. Əgər hökumətin formasını dəyişmək və öz istədikləri hökuməti yaratmaq baş tutmasaydı və mümkün olmasaydı, ölkəni iğtişaşa sürükləyəcəkdilər. Mən bir dəfə dedim ki, İslam inqilabının karikaturunu çəkmək istəyirlər; bir qəhrəmanı yamsılayan, qəhrəmanların və inqilabların ədasını çıxaran kölgələr kimi. Plan bu idi. İran xalqı bunların ağzından vurdu və bütün planlarını məhv etdi.

## 2009-cu il fitnəsini boğmaqda gənclərin rolu

Bu gün Allahın köməyi, qüvvə və qüdrəti ilə gənclər fəaldırlar, səhnədədirlər. Bu çox böyük və əhəmiyyətli məsələdir. Siz gənclər bu hərəkətin ön xəttindəsiniz; həm siyasi, həm iqtisadi, həm elmi işlərdə.

Siyasi sahədə 2009-cu il fitnəsini bizim gənclərimiz yatırtdılar. Müxtəlif amillərdən çox bizim gənclərimiz, siz şagirdlər, siz tələbələr rol oynadınız. O fitnə böyük bir fitnə idi.

## 2009-cu il fitnəsi tərəqqi və inkişaf üçün bir ilahi imtahan idi!

İmtahan çətinlikdən keçməkdir. Bir insanın, yaxud bir xalqın qarşısına bir çətinlik və sıxıntı çıxır; bu çətinlikdən keçid imtahandır. Əgər keçə bilsə, məqsədinə çatacaq; əgər bacarmasa, öz istedadlarından istifadə edə, nəfsinə qalib gələ və sınaqdan keçə bilməsə, qalacaq. İmtahan budur. Allahın imtahanı bizi tanımaq, bizim hansı çəkidə və hansı həddə olduğumuzu bilmək üçün deyil. İmtahanın özü məqsədə sarı bir addımdır. Mənim və sizin imtahan edilməyimizin mənası budur ki, əgər bu çətinlikdən keçə bilsək, yeni vəziyyətə, yeni bir həyata və yeni bir mərhələyə çıxacağıq. Bu baxımdan bir xalqla bir şəxs arasında fərq yoxdur.

Ötən il İran xalqı bir imtahandan keçdi, bir fitnədən keçdi. Bunun mənası yalnız o deyil ki, hamı İran xalqının güclü olduğunu bildi; daha mühüm məsələ budur ki, bu hərəkətlə, fitnə və çətinlikdən bu keçid gücü ilə bu xalq üçün yeni bir vəziyyət, onda yeni bir bacarıq yarandı.

İnsanın bütün ömrü və hər addımı imtahandır. Əgər biz öz nəfsimizə qalib gələ bilsək, öz agahlığımızı işlədib zamanı tanıya bilsək, lazımlı işin nə olduğunu bilsək və onu yerinə yetirsək, bu, bizi həyatın yeni bir pilləsinə qaldıracaq. Bu, bir yüksəliş və tərəqqidir.

Ötənilki hadisələrdən sonra inqilab, İslam Respublikası, İran xalqı və bu ölkədə düzgün din xətti dəfələrlə gücləndi. Səbəb budur: Allah-Taala hər bir imtahanda bir qiymət verir. Bir şəxs, bir cəmiyyət və bir xalq bir imtahandan keçəndə Allah-Taala onlara qiymət verir. Qiymət verməsi belədir ki, onları ucaldır. Allahın imtahanları belədir. Əgər imtahanı pis verib kəsilsək, bu kəsilmə tənəzzül və süqutdan ibarət olacaq, insan olduğundan da pis vəziyyətə düşəcək. Qəbul olanda da belədir; xalqları ucaldır.

Bir zaman xalq bir imtahandan kəsildi və Əmirəl-möminin (ə) ibadət mehrabında qana boyandı. Bəli, pis imtahan idi. Nə üçün cəmiyyət elə bir vəziyyətə düşməlidir ki, ədalət, mənəviyyat və tövhid təcəssümü kimi bir şəxs bədbəxt bir insan tərəfindən qana boyansın? Bu, xalqın pis imtahan verdiyini göstərir. İmtahan verib kəsildilər. Odur ki, Allah onları aşağıya endirdi, vəziyyətləri elə bir həddə çatdı ki, Hüseyn ibn Əlini (ə) gözlərinin önündə öldürdülər.

Yaxşı imtahan verdikdə Allah insanı ucaldır. Bu gün ölkədə və xalq arasında İslam, Allaha iman və inqilab xətti fitnədən öncədən olduqca daha güclü, daha qabarıq və daha yüksəkdir. Nə üçün? Çünki xalq yaxşı imtahan verdi. Bu, Allahın qiymətidir. Bu bizim üçün düstur oldu. Bütün məsələlərdə belə etmək, düzgün görmək, düzgün ölçmək, düzgün hesablamaq lazımdır. Seçimdə səhvə düşməkdən ehtiyatlı olmalı, əsas məsələləri ikinci dərəcəli məsələlərə

qarışdırmamalı, böyük və önəmli hadisələri kiçik görməməli və kiçik hadisələrə böyük gözlə baxmamalıyıq; gərək hər şeyi düzgün təyin edək. Bu birinci addımdır. Sonra da məsuliyyət hiss etməliyik. Canlı bir xalqın gözəl həyatı budur. Allah-Taalanın möminlərə söz verdiyi gözəl həyat budur; yəni hər gün müxtəlif imtahanlarda iştirak edib irəliləmək. Bu yolda dünyadan köçənlər Allaha qovuşur, yüksək səadət dərəcələrinə nail olurlar, dünyada qalanlar da maddi və mənəvi cəhətdən daim inkişaf edirlər. Burada maddi inkişaf da var.

## Hadisənin qısa şərhi

Seçkilərdən sonrakı bir neçə ay ərzində baş verən hadisələrin qısa şərhi budur ki, ölkənin və İslam Respublikası quruluşunun düşmənləri otuz ildən sonra bu inqilabı daxildən məhv etmək üçün bütün güc və qüvvələrini toplamışlar. Xalq bu böyük təxribatın və bu düşmən hərəkətinin qarşısında agahlıq, iradə və misilsiz dirənişlə düşməni məğlub edə bildi. Seçkilərdən 22 bəhmənə (11 fevrala) qədər sürən bu səkkiz ayda bu xalqın və bu ölkənin yaşadıqları həqiqətən İran xalqının başucalığına səbəb olan dərs və ibrət dolu bir təcrübədir.

## Düşmənin proqram və layihələrinin seçkilərdən öncə başlaması

Mənim fikrimcə, mənim təhlilimə görə, bu məsələ seçkilərdən sonra, yaxud seçkilər ərəfəsində başlamayıb, öncədən başlamışdır. Bu, qabaqcadan hazırlanmış və planlaşdırılmışdır. Mən bu işin içində olan şəxsləri əcnəbilərə, ingilislərə, yaxud amerikalılara çalışmaqda ittiham etmirəm. Mən bunu iddia etmirəm, çünki mənə

sübut olunmayanı deyə bilmərəm. Lakin deyə biləcəyim budur ki, bu cərəyan onun öncülləri bilsələr də, bilməsələr də, planlaşdırılmış bir cərəyandır və təsadüfi deyil. Bütün əlamətlər göstərir ki, bu hadisələr planlaşdırılmış və düşünülmüş idi. Əlbəttə, planlaşdıranlar onun baş tutacağına əmin deyildilər.

Bu kampaniya seçkilərdən öncədən başladı; bundan iki-üç ay qabaqdan. Mən fərvərdin ayının 1-də (martın 21-də) Məşhəddə dedim ki, daim qulaqlara pıçıldayır və təkrar edirlər ki, seçkilər saxtalaşdırılacaq. Onlar şəraiti hazırlamaq istəyirdilər. Mən o zaman ölkə daxilində olan yaxşı dostlarımıza xəbərdarlıq etdim və dedim ki, düşmənin xalqın beyninə yeritmək istədiyi bu sözü deməyin. Xalq İslam Respublikası quruluşuna inanır.

İslam oyanışı sarıdan güclü təhdid olunan İslam və inqilab düşmənləri cəbhəsinin uzunmüddətli proqramının olmamasını qəbul etmək olmaz. Buna heç kəs inana bilməz. Buna inanmaq üçün çox sadəlövh və avam olmalıyıq. Mütləq uzunmüddətli proqramları var. Bəzən ölkədə baş verən və əcnəbi əlin göründüyü bu hadisələr birdəfəyə yaranmış şeylər deyil, bir anda ortaya çıxmır. Bunlar üçün də ortamüddətli və uzunmüddətli proqramları olmuşdur; proqram hazırlamışlar və o proqramın nəticəsi bu olub. Belə deyil ki, həmin gecə qərar versinlər və sabah işi görsünlər. Xeyr, mən 2009-cu il təxribatlarında bəzi dostlara fakt və əlamətlərini göstərdim. Ən azı 10-15 il öncədən proqram vardı; imamın vəfatından sonradan proqram hazırlamışdılar. O proqramların təsiri 1999-cu ildəki universitet məhəlləsi məsələlərində, çoxlarınızın xatırladığı, bəlkə də yaxşı yadda saxlamadığı hadisələrdə göründü. Ötən il baş verən hadisələr həmin proqramlar üçün yenidən canlanma oldu. Əlbəttə, vaxtı və müxtəlif

cəhətləri nəzərə almaqla bu işi görməyə çalışdılar, amma Allaha şükür olsun ki, məğlub oldular; belə də olmalı idi.

## Bir qrup Tehran əhalisinin nisbi dəstəyi

Seçkilərdən sonra bəzi adamlar tərəfindən bəzi işlər görüldükdə bir qrup Tehran əhalisi tərəfindən nisbi dəstək də verildi. Onlar bundan ümidlənib həvəsə gəldilər, istədiklərinin baş tutduğunu düşündülər. Buna görə bu orqanların, media qurumlarının, radioların, internet və peyk resurslarının səhnədə iştirakının necə şiddətləndiyini gördünüz; açıq şəkildə işə girişdilər.

## Heç bir dəlil olmadan xalqın seçkilərdə iştirakının sual altına düşməsi

Seçkilərin özünü sual altına salmaq ən böyük cinayətdir. Siz nə üçün bu cinayətə göz yumursunuz? Bu qədər zəhmət çəkilir, xalq gəlib belə əzəmətli formada iştirak edir, dünyanın bu qədər iddia etdiyi demokratiyada rekordu təzələyir. Sonra seçkilərin ertəsi günü bir qrup adam gəlib dəlilsiz-filansız deyir ki, seçkilər yalandır. Bu kiçik işdir?! Bu kiçik cinayətdir?! Bu məsələlərdə bir qədər insaflı olmaq lazımdır. Əvvəlcə buna ümidləri yox idi, sonra baş tutduğunu görüb dərhal meydana atıldılar.

Düşmən də bundan maksimum istifadə etdi. Ölkə daxilində də əvvəldən İslam Respublikası quruluşu ilə müvafiq olmayan bir qrup var; bu günün-dünənin məsələsi deyil, otuz ildir müvafiq deyillər. Onlar bu fürsətdən istifadə etdilər. Quruluşun özünə bağlı və quruluşun özündən olan qüvvələrin (quruluşun zərərinə) belə işlər

gördüyünü görüb, fürsəti fövtə vermədilər, meydana atıldılar və nəticəni gördünüz.

Mən birinci gün bunu bu hadisələrin rejissorları olan həzrətlərə xəbər verdim. Mən ilk saatlarda onlara xüsusi xəbər yolladım. Mən əgər cümə namazında nə vaxtsa bir söz deyirəmsə, bu birinci dəfəsi deyil; xüsusi tərzdə deyilir, xüsusi mesaj göndərilir, lazımi nəsihət edilir, çarəsiz qaldıqda isə o sözü aşkarda söyləyirəm. Mən xəbər göndərib dedim ki, bunu siz başlayırsınız, lakin sona qədər nəzarətdə saxlaya bilməyəcəksiniz, digərləri gəlib sui-istifadə edəcəklər.

Siyasətə qoşulan şəxs mahir bir şahmatçı kimi hər bir gediş etdikdə ondan sonrakı üç-dörd gedişi öncədən görməlidir. Bir gediş edərkən qarşı tərəfin hansı gediş edəcəyini düşünməlisən. Əgər ikinci gedişdə aciz qalacaqsansa, bu gün bu gedişi etmə. Əgər etsən, naşısan; yaxşı təbiri budur: bu işdə, bu oyunda, bu gedişdə naşısan, nabələdsən. Bunlar nə etdiklərini anlamırlar. Bir gediş edirlər və diqqət yetirmirlər ki, sonrakı gedişlərdə necə aciz qalacaq, mat olacaqlar. Bunları hesablamalı idilər. Əsas məsələ bu idi: seçkilərin sual altına salınması, heç bir pis niyyəti olmadan seçkilərə qoşulan və əqidəsinə uyğun olaraq çox yaxşı rəftar edən xalqın bir hissəsini quruluşla, ölkə ilə, ölkənin ümumi hərəkəti ilə üz-üzə qoymaq. Bunlar kiçik işlər deyil.

Düşmən, qarşısında kimin durduğunu bilsin, İslam quruluşu və İslam inqilabı haqda səhvə düşməsin. Elə bilməsinlər ki, İslam inqilabını və quruluşunu belə səfeh işlərlə diz çökürmək olar. İslam quruluşu canlıdır. Elə bilməsinlər ki, xalqın 1979-cu il inqilabındakı möhtəşəm iştirakına dair yanlış bir təqlidlə, o inqilabın bir karikaturu ilə İslam inqilabının və quruluşunun əzəmətinə zərbə vura

bilərlər. Bu təcrübə düşmənin qarşısına çıxmış olmalıdır; səhv etməsinlər. İslam quruluşu bu işlərlə məğlub olmayacaq.

Bu xalq imanlı, sayıq və istedadlı xalqdır. Zirar məscidi ilə bu xalqı məğlub etmək olmaz. Tarixdə bizim özümüzün buna dair nümunələrimiz var: "(Quba məscidinə və müsəlmanlara) zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən göz-qulaq olmaq üçün məscid düzəldənlər..." Bizim ürəkdən, candan və bütün vücudu ilə Qurana bürünmüş böyük imamımızı - inqilabın əziz və əzəmətli rəhbərini yamsılamaqla bu xalqı aldatmaq olmaz. Bu xalqın qəlbi imanla işıqlanmışdır. Bu xalq agahdır. Bizim gənclərimiz agahdırlar.

## Düşmənin müdaxiləsi

Bəzi Qərb ölkələri prezident, Baş nazir, Xarici işlər naziri və müxtəlif məmurlar miqyasında açıq şəkildə İran xalqının daxili işlərinə müdaxilə etdilər. Sizə nə aidiyyəti var?! Nə üçün İran xalqına aid olan bir işə qarışırsınız?! Daxili işlərimizə qarışırlar, sonra da deyirlər ki, biz qarışmırıq. Bəs qarışmanın mənası nədir?! İğtişaşçını həvəsləndirmək müdaxilə deyil?! İran xalqını iğtişaşçı tanıtdırmaq müdaxilə deyil?! Təhqir deyil?! Bir qrup bir namizədə səs verib, başqa bir qrup da başqa bir namizədə. Burada çoxluq və azlıq var, qaydalar var. Namizədləri yetərli səs qazanmayan şəxslərin kədərlənməsi və dilxor olması təbiidir, amma bunun mənası iğtişaş deyil. Bunlar iğtişaşçı deyillər. İğtişaşçılar azsaylı bir dəstədir. İğtişaşçılar bəzi Qərb dövlətlərinin İran daxilində ixtilaf yaratmaq üçün ayırdığı büdcəni alanlardır. Əksərən

sionistlərin nəzarəti altında olan, İran xalqı, İslam və İslam Respublikası quruluşu ilə qatı düşmən olan Amerika və Avropa KİV-ləri İran xalqının bir qrupunun iğtişaşçı olduğunu bildirirlər.

Biz xəbərdarlıq edirik; İran xalqı ölkəsinin daxili bir məsələsindən onun əleyhinə istifadə etməyə çalışan bəzi ölkə başçılarına xəbərdarlıq edir: diqqətinizi toplayın, İran xalqı reaksiya verəcək.

Xarici düşmən deyən kimi xaricilər tez məsum görkəmi ilə gəlirlər ki, yox, yox, biz müdaxilə etmirik, biz bir iş görmədik. Bu həyasızlıqdır. Axı hamı görür. Təhlükəsizlik qurumlarının və digərlərinin öyrəndiyi işlər bir yana, hamının müşahidə etdiyi faktlar var; son bir neçə onillikdə xalqların taleyində böyük rol oynamış media qurumları var.

Mən bir neçə il bundan qabaq burada xəbərdarlıq kimi dedim ki, hegemonluğa bağlı təbliğat və informasiya şəbəkələri xalqları iğtişaşa çəkmək və bununla hərəkət etdikləri yoldan daşındırmaq üçün onların istiqlaliyyətinin ən güclü düşmənləridir. Mən o zaman bir neçə ölkəni misal vurdum. Bu gün isə informasiya vasitələri həmin sözləri dediyimiz bir neçə il öncəyə nisbətən daha böyük, geniş, əhatəli və rəngarəng olmuşdur. Düşmənlər işləyirlər, lakin deyirlər ki, biz heç bir iş görmürük.

Onların iğtişaş törədən cahil və nadan qruplara tapşırıqları öz informasiya vasitələrində açıq şəkildə yayımlanır: polislə belə vuruşun, Bəsic əleyhinə belə danışın, küçədə belə iğtişaş törədin, belə dağıdın, belə yandırın və sair. Bunlar müdaxilə deyil?! Bundan da açıq müdaxilə?! Bundan da aşkar müdaxilə?! Bunu bizim xalqımız öz gözü ilə gördü. Bunlar bizim xalqımız üçün təcrübədir. Kimsə düşünməsin ki, məsələn Tehranda bir

zibil qabını sındırmağa gücü çatan və bu işi görən, yaxud fərz edin xalqın malına - motosikletə, maşına, banka və dükana ziyan vuran bu kiçik qrup bu xalqdır. Xeyr, bu səhvdir; bu, xalq deyil. Bəli, dəstək vermək üçün hegemon tribunalardan onları xalq adlandırırlar. Bunlar xalqdır?! Xalq bu ziyanverici iğtişaşçıları səhnədə görən kimi kənara çəkilib onlara nifrətlə baxan, ümumi təhlükəsizliyi və ictimai sabitliyi pozanlara nifrətlə baxan milyonlardır.

Bəzi namizədlərin etirazını gördükdə gözlənilmədən onlar üçün fürsət yarandığını düşündülər və onu fövtə verməyib təşəbbüsü ələ almağa çalışdılar. Şənbə və bazar günlərindən sözləri dəyişildi, gözləri namizədlərin dəvəti ilə küçələrdə keçirilən bəzi toplantılara düşdükdə həvəsləndilər, yavaş-yavaş niqabları kənara çəkildi və həqiqi simaları görünməyə başladı. Bir neçə Avropa ölkəsinin və Amerikanın dövlət başçıları və bir neçə Xarici işlər naziri iç üzlərini göstərən sözlər danışdılar. Amerika prezidentinin belə dediyi söyləndi: "Biz xalqın küçələrə çıxdığı belə bir günü gözləyirdik". Bir tərəfdən məktub yazıb əlaqələri bərpa etmək istədiklərini deyir və İslam Respublikasına hörmət bildirirlər, bir tərəfdən də bu sözləri danışırlar. Biz hansına inanaq?

## Seçkilərdən sonrakı hadisələrdə baş verən bəzi cinayətlər və qanun pozuntuları

Bu hadisələrdə adi camaatdan və Bəsicdən ödürülən bu bir neçə nəfərin cavabını kim verməlidir? Küçədə qarışıqlıqdan istifadə edirlər, Bəsici terror edirlər, polisi terror edirlər; hər halda bunlar bir reaksiyaya səbəb olacaq və bu reaksiya emosional olacaq. Bu reaksiyalar barədə

kim düşünməlidir? Bəzi hadisələrə görə insanın bağrı qan olur. Universitet məhəlləsinə gedib gənc tələbələrə, özü də çaxnaşma yaradan yox, mömin və hizbullahçı tələbələrə hücum edir, eyni zamanda rəhbərin lehinə şüar verirlər. Bu hadisələrə görə insanın bağrı qan olur.

## Seçkilərdən sonrakı hadisələri birinci və ikinci dərəcələrə bölmək

Bəzi adamlar seçkilərdən sonra baş verənləri, xalqa və İslam quruluşuna olunan zülmü, digər xalqlar qarşısında bəziləri tərəfindən quruluşa edilən hörmətsizliyi - bunların hamısını görməzdən gəlir, filan hadisəni, Kəhrizək zindanını, yaxud məhəllə hadisəsini seçkilərdən sonra bu günə qədərki dövrün əsas hadisəsi hesab edirlər. Bunun özü başqa bir zülmdür, əsas məsələ isə başqadır. Əsas məsələ budur ki, xalq əzəmətli bir iş görmüş, aktiv, yaxşı və bənzəri az olan bir seçkilərdə iştirak etmiş və öz səsini qutulara salmışdır. Səksən beş faiz zarafatdır?! Bu seçkilər son bir-iki ildə bir-birinin ardınca iqtisadi, elmi, siyasi, təhlükəsizlik və beynəlxalq nailiyyətlər kəsb edən quruluşu imtiyaz və hörmətin yüksək səviyyəsinə çatdırır. Sonra bir də müşahidə edirik ki, bu fəxri məhv etmək üçün bir hərəkət başlayır. Əsas məsələ budur.

Mən adətən gündüzlər təxminən 16-17 qəzetə baxıram. Bütün səhifələrinə baxmıram, adətən başlıqlara və diqqətəlayiq baş məqaləsi olanda ona baxıram. Bizim qəzetlərimizin çoxu təəssüf ki, hadisələri işıqlandırmaqda zəif görünür, məsələləri əhəmiyyət baxımından dərəcələrə bölməkdə insafsız işləyirlər. Bu son məsələləri birinci-ikinci dərəcələrə bölmək lazımdır. Birinci dərəcəli məsələ və onun ətrafında ikinci dərəcəli məsələlər var. Bu o

deməmək deyil ki, ikinci dərəcəli məsələlərin əhəmiyyəti azdır. Xeyr, az deyil, amma birinci dərəcəli məsələnin əhəmiyyəti daha artıqdır.

Bu son hadisələrdə birinci dərəcəli məsələ seçkilərin özü idi. Seçkilərin özünü sual altına salmaq ən böyük cinayətdir. Siz nə üçün bu cinayətə göz yumursunuz? Bu qədər zəhmət çəkilir, xalq gəlib belə əzəmətli formada iştirak edir, dünyanın bu qədər iddia etdiyi demokratiyada rekordu təzələyir. Sonra seçkilərin ertəsi günü bir qrup adam gəlib dəlilsiz-filansız deyir ki, seçkilər yalandır. Bu kiçik işdir?! Bu kiçik cinayətdir?! Bu məsələlərdə bir qədər insaflı olmaq lazımdır.

Əsas məsələ bu idi: seçkilərin sual altına salınması, heç bir pis niyyəti olmadan seçkilərə qoşulan və əqidəsinə uyğun olaraq çox yaxşı rəftar edən xalqın bir hissəsini quruluşla, ölkə ilə, ölkənin ümumi hərəkəti ilə üz-üzə qoymaq. Bunlar kiçik işlər deyil. Əgər siz insaflısınızsa, ikinci dərəcəli hərəkətləri və hadisələri görün, əhəmiyyətini nəzərə alın, lakin bunun daha mühüm olmasını da diqqətdən qaçırmayın.

# Hadisənin iştirakçıları

## Xalq və aparıcı adamlar

İran xalqının möhtəşəm şəkildə iştirak etdiyi izdihamlı 22 xordad seçkilərində böyük iş görüldü. Təxminən 40 milyon insanın, yəni səsvermə hüququ olanların 85 faizinin seçki məntəqələrinə getməsi dünyada bənzərsiz rəqəmlərdəndir. Bu, İran xalqı üçün böyük imic yaratdı, bu böyük xalq üçün böyük iqtidara və inqilab üçün hörmətə səbəb oldu; göstərdi ki, inqilab otuz ildən sonra xalqı bu şəkildə səhnəyə çıxarmaq gücünə malikdir.

Bu seçkilərdə bəzi imtahanlar qarşıya çıxdı. Bir imtahan ümumi xalqın imtahanı idi. Mənim fikrimcə, xalq bu imtahandan qələbə ilə çıxdı, qəbul oldu. Xalqın seçkilərdə güclü iştirakı onu başıuca edən əzəmətli bir imtahan idi. Xalqın və siyasi cinahların çoxu vəzifələrinə uyğun hərəkət etdilər, bəzi aparıcı şəxslər isə təbii ki, imtahandan kəsildilər. Bu imtahan bəziləri üçün uğursuz oldu. Həmişə sədaqətlə və sağlam şəkildə vəzifələrini yerinə yetirməyə çalışan bəzi gənclərimiz sayıq olmalarına rəğmən, bəzi yerlərdə səhv etdilər. Bu ölkənin çoxlu gəncləri də həmin iman və sədaqətlə düzgün hərəkət etdilər. Kiməsə inanıb səs verdilər; o şəxs ya qalib gəldi, ya da gəlmədi. Meyar bu deyil. Meyar budur ki, insan bir şeyə inansın və sayıq şəkildə, vəzifə və məsuliyyət hissi ilə uyğun siyasi əmələ və hərəkətə qoşulsun, sonra da hamı qanuna təslim olsun. Bizim xalqımızın böyük əksəriyyəti – imtahanı yaxşı verən gənclər, görkəmli şəxsiyyətlər və adi xalqdan olanlar bu sırada dururlar. Bir qrup da təbii ki, aldandı.

2009-cu ildə xalq özünün misilsiz fəallığı ilə bizim inqilabımızın tarixində və təbii ki, həm də ölkəmizin böyük tarixində görünməyən və zirvə nöqtə sayılan seçkilər keçirdi. Seçkilərdən sonrakı aylarda da xalq böyük bir imtahanda, əzəmətli və taleyüklü bir məsələdə öz fəallığını, iradəsini, müqavimətini, milli əzmkarlığını və agahlığını göstərdi.

Seçkilərdən sonrakı bir neçə ay ərzində baş verən hadisələrin qısa şərhi budur ki, ölkənin və İslam Respublikası quruluşunun düşmənləri otuz ildən sonra bu inqilabı daxildən məhv etmək üçün bütün güc və qüvvələrini toplamışlar. Xalq bu böyük təxribatın və bu düşmən hərəkətinin qarşısında agahlıq, iradə və misilsiz

dirənişlə düşməni məğlub edə bildi. Seçkilərdən 22 bəhmənə (11 fevrala) qədər sürən bu səkkiz ayda bu xalqın və bu ölkənin yaşadıqları həqiqətən İran xalqının başucalığına səbəb olan dərs və ibrət dolu bir təcrübədir.

Ötən il bizim ölkəmiz üçün çox önəmli bir il idi. Novruz bayramı münasibəti ilə İran xalqına müraciətimdə qeyd olunduğu kimi, 2009-cu il İran xalqının ili idi, İran xalqının qələbə ili, İslam quruluşunda və ölkəmizdə öz həyatının böyük sahələrində fəal iştirak etdiyi il idi. 22 Xordadda 40 milyon insan seçki məntəqələrinə getdi, xalq 85 faiz göstərici ilə seçkilərdə iştirak etdi. Bu çox mühüm məsələdir. Şübhəsiz ki, bir quruluşun legitimliyində xalqın iştirakı təsirlidir. Qərbdə öz legitimliklərinin xalqın iradəsindən qaynaqlandığını, başqa heç bir amilin təsirli olmadığını düşünən ölkələrdə belə fəallıq yoxdur. Bizim seçkilərimizlə təxminən eyni zamanda İngiltərədə seçki keçirildi, səsvermə hüququ olanların təxminən otuz faizi iştirak etdi. 85 faiz hara, 30 faiz hara! Xalqın bu hərəkəti və iştirakı çox əhəmiyyətli məsələdir. Dünyanın siyasi analitik və şərhçiləri bu məsələlərin yanından asanlıqla keçmirlər. Bunu mətbuat səhifələrində işıqlandırmaya bilərlər, siyasətçilər bunu deməyib gizlədə bilərlər, amma təsirlidir və anlayırlar.

Bu xalq öz sözünün üstündə durmuşdur. Bu, xalqımızın əzəmətli bir hərəkəti idi. Xalq ölkənin tarixində bunu qeyd edə bildi: İslam quruluşunun – bu, İslamiyyət və respublikaçılıq əsasında qurulan bir quruluşdur və bunlar bir-birindən ayrılmazlar; bunları bir-birindən ayıranlar İslam Respublikasını tanımayıblar – yaranmasından otuz il sonra xalq bu quruluşun əsaslarına o qədər sadiqdir ki, bir seçkidə belə həvəslə, aktiv və izdihamla iştirak edir. Bu, möhtəşəm bir xalq hərəkəti idi. İran xalqının düşmənləri

bu hərəkətin qarşısında planlar cızdılar, bu planları həyata keçirməyə başladılar. Əgər 2009-cu ilin 22 xordad seçkilərində sizin iştirakınız zəif olsaydı, əgər qırx milyonun yerinə, məsələn otuz milyon səs versəydi, böyük ehtimalla sizin düşmənləriniz uğur qazanardılar.

## Etiraz edən namizədlər və onların tərəfdarları

Daxildə də belədir. Siz görürsünüz ki, bir qrup insan qanunu tapdadı, iğtişaş törətdi. Xalqı bacardıqları qədər quruluşun qarşısında dayanmağa həvəsləndirdilər. Düzdür, xəncərləri kəsmədi, istədikləri baş tutmadı, amma bu başqa bir məsələdir, onlar öz səylərini göstərdilər, inqilab və İslam düşmənlərinin dilini uzatdılar, onlara cəsarət verdilər. Elə etdilər ki, imamın düşmənləri - imama qarşı ürəklərində kin bəsləyənlər universitet məhəlləsinə gedib imamın şəklini təhqir etməyə cürətləndilər; məyus və ümidsiz düşmənin canlanmasına, həvəslənərək şübhəsiz ki, imamı və inqilabı sevən, ölkəyə, vətənlərinə və İslam Respublikasına xidmətə eşq bəsləyən tələbə izdihamı qarşısında belə bir təhqiri, belə böyük işi görməyə cürətləndilər.

O qanunsuz işləri, fitnə törətmələri, iğtişaşa həvələndirmələri və xalqı iğtişaşa çəkmələri, bu da nəticələri. Bu səhvlər baş verir; yanlış iş görülür, səhv iş görülür, sonra onun səhv olmasını gizlətməkdən ötrü barəsində fəlsəfə düzəldir, fəlsəfə toxuyur, onun üçün dəlil göstərirlər. İnsanların böyük imtahanlarından biri budur. Hamımız təhlükə altındayıq, gərək ehtiyatlı olaq. Səhvi edir, sonra vicdanımız önündə, xalqın sualı və soruşanların

gözü önündə işimizi müdafiə etmək üçün ona bir fəlsəfə düzəldir, bir dəlil yonuruq.

Bunlar fitnə şəraiti yaradır, vəziyyəti qarışdırırlar. Qanuna tərəfdarlıq şüarı verirlər, lakin açıq şəkildə onun ziddinə işləyirlər. Şüarlarında imama tərəfdar olduqlarını bildirirlər, amma öz tərəfdarları arasında belə böyük bir günahın baş verməsinə imkan yaradırlar: imam təhqir olunur, imamın şəkli təhqir olunur. Bu, kiçik məsələ deyil. Düşmənlər buna çox sevinirlər. Yalnız sevinmirlər, təhlil də edir, o təhlilin əsasında qərar çıxarır, o qərar əsasında işləyir, milli maraqlarımızın və İran xalqının əleyhinə həvəslənirlər. Burada problemi yaradan amil həmin hiylə, mühitin dumanlı olması və Əmirəl-mömininin (ə) sözündə olandır: bir haqq sözü bir nahaq sözlə qarışdırırlar və haqq onu sevənlərə tanınmaz olur. Aydınlatmaq, meyar və ayrıc müəyyən etmək burada mənasını tapır.

İnqilab, imam və İslam üçün çalışan şəxs onun sözünün və hərəkətinin bu prinsiplər əleyhinə bir istiqamətin yaranmasına bais olduğunu görən kimi cəld ayılmalıdır. Nə üçün ayılmırlar? İslam Respublikasının ən əsas şüarı olan "İstiqlaliyyət, Azadlıq, İslam Respublikası" şüarından "İslam" sözünün çıxarıldığını eşidən kimi özlərinə gəlməli, getdikləri yolun səhv olduğunu bilməli və kənara çəkilməlidirlər. Fələstinin xeyrinə və işğalçı sionizm rejiminin əleyhinə olan Qüds günündə işğalçı sionizm rejiminin xeyrinə və Fələstinin əleyhinə şüar verildiyini gördükdə ayılıb özlərini kənara çəkməli və deməlidirlər ki, xeyr, biz biz bu cərəyanla deyilik.

Dünyanın zalım və hegemon başçılarının, həm indi, həm də son 100-200 illik tarixdə zülmün tərənnümü olan Amerika, Fransa, İngiltərə və bu kimi dövlət başçılarının bunları dəstəklədiklərini gördükdə ayılmalı və işlərində

nöqsanın olduğunu anlamalıdırlar. Bütün azğın insanların – şah tərəfdarlarının, kommunistlərin, ölkədən qaçan rəqqas və sapqın müğənnilərin bunları dəstəklədiklərini gördükdə ayılmalı, gözləri açılmalı, anlamalı və işlərində nöqsanın olduğunu bilməlidirlər; dərhal dönüb deməlidirlər ki, xeyr, biz sizin dəstəyinizi istəmirik. Nədən çəkinirlər?!

Ağıllılıq bəhanəsilə bu aydın həqiqətləri görməzliyə vurmaq olar ki, biz ağıl işlədirik?! Bu xalqın, bu ölkənin, İslamın və inqilabın düşmənlərinin sizi özlərindən bilib əl çalmaları, sizin də bundan xoşlanmanız ağıllılıqdır?! Bu, ağlın qarşı nöqtəsidir. Ağıl budur ki, sizin iddia etdiyiniz əsasların əksinə bir şey görən kimi tez özünüzü kənara çəkib deyəsiniz ki, yox, biz yoxuq; imamın şəklinin təhqir olunduğunu görən kimi məsələni inkar etmək yerinə işi qınamalı və qınamaqdan da çox, məsələnin mahiyyətini, həqiqətini başa düşməlisiniz, düşmənin necə plan hazırladığını və məqsədinin nə olduğunu bilməlisiniz. Bu cənablar bunları bilməlidirlər. Mən təəccüb edirəm. Şah dövründə bu cənabların bəzisinə inqilaba görə bir şillə də dəyməyib, inqilabın sayəsində ad-san qazanıblar, hər şeyləri inqilabdandır. Gördünüz ki, inqilabın düşmənləri necə parladılar, hazır oldular, sevincək və gülə-gülə sıraya düzüldülər. Hər halda, bunları görürsünüz. Özünüzə gəlin, ayılın.

Siz bizim köhnə qardaşlarımızsınız. Bunların bəziləri bir zaman imamı müdafiə etdiklərinə görə təhqirlə də üzləşirdilər. Amma indi bunların adlarını şüar edənlər, bunların şəkillərini qaldıranlar, bunların adlarını uca tutanlar tam qarşı tərəfdə durub imamın, inqilabın və İslamın əleyhinə şüar deyir, ramazan ayında açıq-aşkar oruclarını yeyirlər. Bunları ki, görürsünüz; onda kənara

çəkilin. Seçkilər bitdi. Seçkilər ümumi idi, düzgün idi və onda nöqsan tapıb sübut edə bilmədilər. İddia etdilər, fürsət verildi; dedik ki, gəlin göstərin, sübut edin; sübut edə bilmədilər, gəlmədilər və məsələ bitdi. Qanun tələb edir ki, insan seçilmiş prezidenti qəbul etməsə də, qanuna hörmət etməli və tabe olmalıdır. Təbii ki, heç kim seçilmiş prezidentin yüz faiz mütləq yaxşılıqdan və seçilməyən tərəfin mütləq qəbahətdən ibarət olduğunu deyə bilməz. Hamının yaxşı cəhəti də var, pis cəhəti də; bu tərəfin də, o tərəfin də. Qanun meyardır. Nə üçün belə olur? Nə üçün? Bu, nəfsin əməlidir.

Bunlar yalnız bu günə məxsus deyil. İnqilabın əvvəllərini xatırlayanlar bilirlər. İnqilabın ilk onilliyində və imamın həyatı dövründə onun dostlarından və yaxınlarından olan bəzi şəxslər imamın qarşısında dayandılar, imamla mübarizəyə qalxdılar, imamı diz çökürməyə, o böyük və ilahi insanın hərəkətinin səhv olduğunu sübut etməyə cəhd etdilər, lakin sonra təcrid olundular, inqilab bunları tərk etdi. İmamın yaxınlarından, dostlarından olan bu şəxslər ya düşmənə sığındılar, ya inqilaba qarşı çıxdılar, ya ona zərbə vurdular; bu qədər tənəzzül etdilər. Bunlar bizim hamımız üçün ibrət olmalıdır; başa düşməliyik.

Düşmənin planlaşdırdığı bu fitnənin müxtəlif cəhətlərini təhlil və izah etmək və aydınlatmaq üçün hələ çoxlu işlər görülməlidir. Düşmən çox dəqiq hesablamalar aparmışdı, lakin hesabları səhv çıxdı. Onlar İran xalqını tanımayıblar. Səhnə arxasındakı düşmən hər şeyi müşahidə etmişdi. Sizin fitnə başçıları adlandırdığınız bu şəxsləri düşmən səhnəyə itələmişdi. Təbii ki, günah etdilər. İnsan düşmənin oyuncağı olmamalı və tez məsələni anlamalıdır. Əgər əvvəldə diqqətsizlik

etmişdilərsə də, sonradan anlayanda dərhal yolların dəyişməli idilər, amma dəyişmədilər.

## İğtişaşçılar

Əgər hər bir seçkidən sonra uduzanlar küçələrdə düşərgə qursalar, tərəfdarlarını küçələrə çağırsalar, udanlar da onlara cavab olaraq düşərgə qursalar və hamını küçəyə çıxarsalar, onda seçkilər nə üçün keçirilir? Xalqın təqsiri nədir?! Küçə xalqın iş-güc yeridir, get-gəl etdiyi yerdir, yaşadığı yerdir. Bu xalq nə günah etmişdir ki, biz öz tərəfdarlarımızı onlara göstərməyə çalışaq; o tərəfdə bir cür, bu tərəfdə bir cür?! Zərbə vurmaqdan ötrü aramıza girən terrorçu üçün siyasi məsələ mühüm deyil. Onun üçün yürüş edən, yaxud mitinq keçirən bu xalqın arasında gizlənməkdən daha yaxşı nə ola bilər?! Əgər bu toplantılar ona imkan yaradırsa, bunun məsuliyyəti kimin üzərinə düşür? Bu hadisələrdə adi camaatdan və Bəsicdən ödürülən bu bir neçə nəfərin cavabını kim verməlidir? Küçədə qarışıqlıqdan istifadə edirlər, Bəsici terror edirlər, polisi terror edirlər; hər halda bunlar bir reaksiyaya səbəb olacaq və o reaksiya emosional olacaq.

## Düşmənin rolu

Mən bir neçə il bundan qabaq burada xəbərdarlıq kimi dedim ki, hegemonluğa bağlı təbliğat və informasiya şəbəkələri xalqları iğtişaşa çəkmək və bununla hərəkət etdikləri yoldan daşındırmaq üçün onların istiqlaliyyətinin ən güclü düşmənləridir. Mən o zaman bir neçə ölkəni misal vurdum. Bu gün isə informasiya vasitələri həmin sözləri dediyimiz bir neçə il öncəyə nisbətən daha böyük, geniş, əhatəli və rəngarəng olmuşdur. Düşmənlər

işləyirlər, lakin deyirlər ki, biz heç bir iş görmürük. Onların iğtişaş törədən cahil və nadan qruplara tapşırıqları öz informasiya vasitələrində açıq şəkildə yayımlanır: polislə belə vuruşun, Bəsic əleyhinə belə danışın, küçədə belə iğtişaş törədin, belə dağıdın, belə yandırın və sair. Bunlar müdaxilə deyil?! Bundan da açıq müdaxilə?! Bundan da aşkar müdaxilə?! Bunu bizim xalqımız öz gözü ilə gördü. Bunlar bizim xalqımız üçün təcrübədir. Kimsə düşünməsin ki, məsələn Tehranda bir zibil qabını sındırmağa gücü çatan və bu işi görən, yaxud fərz edin xalqın malına - motosikletə, maşına, banka və dükana ziyan vuran bu kiçik qrup bu xalqdır. Xeyr, bu səhvdir; bu, xalq deyil. Bəli, dəstək vermək üçün hegemon tribunalardan onları xalq adlandırırlar. Bunlar xalqdır?! Xalq bu ziyanverici iğtişaşçıları səhnədə görən kimi kənara çəkilib onlara nifrətlə baxan, ümumi təhlükəsizliyi və ictimai sabitliyi pozanlara nifrətlə baxan milyonlardır.

Öncədən bəzi planlar hazırlanmışdı. Mən heç kimi ittiham etmirəm, lakin düşmənin iş üsulunu bilir və görürəm, onu inkar edə bilmərəm. Düşmənin iş üsulu bəlli bir üsuldur. Buna bənzər işləri digər yerlərdə də gördülər. Hegemon güclər bir quruluşdan narazı olanda tutduqları yollardan biri budur ki, bir seçkini gözləyirlər, o seçkilərdə onların istəmədiyi şəxslər seçiləndə nümayişkaranə xalq hərəkəti ilə vəziyyəti dəyişməyə çalışırlar. Bəzi şüarlarla xalqın bir qrupunu səhnəyə çəkir, küçələrdə təzyiq göstərməklə qanunla əldə olunanı zorla dəyişmək istəyirlər. Bu, tanınmış bir plandır. Seçkilərdən sonra baş verən hadisələrin xalq tərəfindən, müstəqil, səmimi və peşəkar analitiklər tərəfindən xarici amillərə aid edilməsi bundan irəli gəlir. Əgər kiminsə səhnə arxasından heç bir xəbəri olmasa da, məlumat mənbələrinin verdiyi

informasiyalar olmasa da, işin formasına baxanda onun xalqın düşmənlərinin və əcnəbilərin işi olduğunu anlayar. Seçki zamanı qanuni bir hərəkət baş verir və onun bir nəticəsi olur. Onlar bu nəticəni zorla dəyişdirmək istəyirlər. Bir qrupu səhnəyə çəkirlər, lazım olsa, kobudluq da edirlər; qanuni nəticələri dəyişməkdən ötrü yanğınlar törədirlər, bank yandırırlar, avtobus yandırırlar. Bu isə həm şəriətə və həm qanuna ziddir. Bəllidir ki, bu hərəkət əcnəbilər tərəfindən yönəldilir. Onlar ölkədə bu işləri görmək istəyirdilər.

Ölkə üçün mühüm sınaq idi; mən sizə deyirəm ki, mühüm sınaq idi; həm çoxlu ibrətləri vardı, həm də çoxlu dərsləri. İran xalqı bu sınaqdan qalib çıxdı. Onlar xalqı bir azlıqdan və bir çoxluqdan ibarət olan iki qrupa bölmək istəyirdilər. Seçkilərdə qələbə çalmış qrupu öz məqsədlərinə nail olmayan qrupla üz-üzə qoymaq istəyirdilər. Yəni xalq iki yerə bölünsün, bir qrup iğtişaşçı da meydana atılıb iğtişaş törətsin və daxili müharibə yaransın. Ümidləri bu idi, lakin xalq sayıq tərpəndi. Siz gördünüz ki, seçki günü xalq 13-14 milyonluq və 24-25 milyonluq bir qruplara bölündü. Qısa bir müddətdən sonra isə bu iki qrup birləşib qiyamçıların və iğtişaşçıların qarşısında dayandı. Xalqın sayıqlığı burada görünür. Onlar xalq arasında iğtişaş törətmək istəyirdilər. Otuz ildir inqilabın və bu xalqın əleyhinə bacardıqları hər bir işi görən bədxahlar da fürsəti fövtə verməyib öz təbliğatları ilə işə qoşuldular. Bundan artıq bir iş görə bilmirdilər. Əgər amerikalılar, ingiltərəlilər və sionistlər hərbi qüvvə ilə Tehran küçələrinə daxil ola bilsəydilər, əmin olun ki, bunu edərdilər. Əgər öz əlaltıları və muzdurları ilə hadisələri xaricdən yönəltmələri mümkün olsaydı, bunu edərdilər, lakin bilirdilər ki, bu iş onların zərərinə bitəcək.

Bacardıqları yeganə iş bu idi ki, qiyamçılara və iğtişaş törədənlərə informasiya dəstəyi versinlər, beynəlxalq siyasətdə onları etsinlər. Hegemon ölkələrin prezidentləri bu işə qoşuldular, küçə iğtişaşçılarını və od vurmaqla özlərini göstərmək istəyən pozucu qüvvələri İran xalqı adlandırdılar. Onların məqsədi dünyanın və ölkəmizin ictimai rəyini özləri istədikləri kimi formalaşdırmaq idi, lakin iflasa uğradılar.

## Təhlükəsizlik orqanları, polis və Bəsic

Mən fəaliyyətlərinə görə təhlükəsizlik polisimizə, nizam-intizam polisimizə və Bəsic təşkilatına təşəkkür edirəm. Bunlar çox böyük və yaxşı işlər gördülər. Lakin bu başqa bir mövzudur. Əgər bu orqanlardan hər hansı birinə bağlı olan bir şəxs bir qanun pozuntusuna yol vermişsə, bir cinayət törətmişsə, o da ayrıca araşdırılmalıdır. Cinayətlərinə görə nə bunların xidmətini görməzdən gəlməliyik, nə də xidmətlərinə görə cinayətlərinin üstünü örtməliyik.

## Daxili media

Söz və təbliğat ajiotajı problemlərin həllinə heç bir kömək etmir; siz bunu gördünüz. Seçki təbliğatı seçkilərin başlanmasından bir ay, yaxud iyirmi gün öncədən başlayır, lakin novruz bayramından öncədən seçki təbliğatı başlandı. Bəzi dostların tənqid etdiyi bu televiziya da təəssüf ki, işıqlandırdı. Mən razı deyildim. Siz bunu da güman etməyin ki, Teleradio Verilişləri Şirkətinin rəisini mən təyin etidiyimdən onun bütün proqramlarını bir-bir gətirirlər və mən baxıb imzalayıram. Xeyr, mən radio və

televiziyanın çoxlu proqramlarından razı deyiləm. O cümlədən seçkilərdən üç ay öncədən - seçkilər 22 xordadda (12 iyunda) idi - isfənd (fevral-mart) ayından, hətta ondan da tez başlayan bəzi təbliğat səfərləri, danışılan sözlər, keçirilən tədbirlər və mübahisələr televiziyadan yayımlandı. Təəssüf ki, televiziya azadfikirli olduğunu göstərmək üçün onları yayımladı. Bunlar xəyal, ölkə daxilində ajiotaj yaratmaqdır. Düşüncə ajiotajı düzgün mübahisələrdən fərqli bir şeydir. Mən dedim ki, universitetlərdə azadfikirlilik kürsüləri yaradın. Siz gənclər nə üçün yaratmadınız? Siz bu Tehran Universitetində, bu Şərif Universitetində, bu Əmir Kəbir Universitetində siyasi azadfikirlilik, etiqadi azadfikirlilik kürsüləri yaradın. Bir neçə tələbə gedib orada sözlərini danışsınlar, bir-birinin sözünü tənqid etsinlər, bir-biri ilə mübahisə etsinlər. Həqiqət orada özünü göstərəcək. Həqiqət birinin bir tənqidi tullaması ilə aşkarlanmır, düzgün anlaşılmır. Deyişmələrlə gərgin fikir mühiti yaratmaq ölkənin inkişafına heç bir kömək etmir. Siz bu sahədə bu qoca atanızın təcrübəsinə inanın. Ölkənin inkişafına kömək edən amil düşüncələrin həqiqi azadlığıdır; yəni azad şəkildə düşünmək, azad şəkildə sözünü demək, hay-küydən qorxmamaq, onun-bunun həvəsləndirməsinə də baxmamaq. Bir zaman siz elə bir söz danışırsınız ki, dünyanın varlıqları bütünlüklə çirkinlik və xəbislikdən ibarət olan siyasi müşahidəçilərinin hamısının birdən-birə sizə əl çaldığını görürsünüz. Bununla həvəslənməyin, düzgün mübahisə edin, məntiqli mübahisə edin, bir sözü dinləyib bir sözü deyin, sonra oturub fikirləşin. Bu, Quranın göstərişidir: "Sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyan bəndələrimə müjdə ver!". Sözü eşidib ən yaxşısını seçmək lazımdır. Ajiotaj

yaratmağın nəticəsi isə gördüyünüz kimi olur. Seçkilərdən öncəki və sonrakı ajiotajın nəticəsi budur; xüsusən də əcnəbi əli müdaxilə etdikdə. Siz hansı dəlil və izahla düşünürsünüz ki, dünyanın təbliğat maşınları İslam Respublikası quruluşunun zərərinə olduğunu düşündükləri hadisələri anbaan nəşr edir və yayırlar? Bu iş hansı hesabla baş verir? Bunu düşünmək lazım deyil?! Bunun üzərində araşdırma aparmaq lazım deyil?! Diqqət yetirməsi lazım olan məsələlər bunlardır.

Radio və televiziya ölkənin real vəziyyətini nümayiş etdirir? Xeyr, yarımçıq göstərir. Radio və televiziya çoxlu dəyərli və böyük inkişafları göstərmir. Dəlili də budur ki, müxtəlif hadisələrlə əlaqədə olan sizlər ölkənin çoxlu həqiqətlərindən və ölkə inkişaflarından xəbərdar deyilsiniz. Bu bizim radio və televiziyamızın nöqsanıdır. Əgər filan Qərb ölkəsinin çoxlu staj, təcrübə və incəsənətdən istifadə etməklə öz yalanlarını doğru göstərdiyi kimi, bizim radio və televiziyamız ölkə reallıqlarını düzgün əks etdirə bilsəydi, siz bilin ki, bu gün gənc nəslin ümidi, onun ölkəsinə, dininə və İslam Respublikası quruluşuna vurğunluğu indikindən dəfələrlə artıq olardı. Bu bizim radio və televiziyaya iradımızdır. Əgər ölkənin vəziyyətini düzgün əks etdirə bilsəydi, tamaşaçıların rəğbəti və sevinci bugünkündən dəfələrlə artıq olardı. Sevincə və razılığa səbəb olan çoxlu işlər görülməkdədir. Yalnız elmi sahələrdə yox, ictimai və siyasi sahələrdə də belədir; başucalığı gətirən işlər görülür. Bunu çoxları - yəni əksəriyyət bilmir. Mənim çox vaxt dövlət məmurlarına etirazım budur ki, siz nə üçün bəyan edə bilmirsiniz. Bəyan etmək də bir məharətdir. Xüsusən sənətkarcasına bəyan etmək böyük hünərdir. Bu onlarda yoxdur.

Bizim adətən bəzilərinə tutduğumuz iradlardan biri budur ki, özgənin dediyini qəbul edir, doğmanın dediyinə isə şübhə ilə yanaşırlar. Nə üçün? Bu yanaşma düzgün deyil, qeyri-sağlam yanaşmadır. Bunu islah etmək lazımdır. Siz yaxşı gənclər inşallah gəlib müxtəlif işlərə başlayın və ölkənin təbliğat işini əlinizə alın. Bizim mətbuatımız da belədir. Mən adətən gündüzlər təxminən 16-17 qəzetə baxıram. Bütün səhifələrinə baxmıram, adətən başlıqlara və diqqətəlayiq baş məqaləsi olanda ona baxıram. Bizim qəzetlərimizin çoxu təəssüf ki, hadisələri işıqlandırmaqda zəifdirlər, məsələləri əhəmiyyət baxımından dərəcələrə bölməkdə insafsızlıq edirlər.

Bəziləri - istər mətbuat, istər müxtəlif ünsürlər tövsiyə qəbul etmirlər. Onlar bizdən tövsiyə istəmirlər. Bəzi qurumların və media orqanlarının siyasətlərini kimin təyin etdiyi, haradan təyin olunduğu bəlli deyil. Onların çörəyi ixtilaf yaratmaqdan çıxır. Lakin ölkənin maraqlarını və həqiqətin hakim olmasını istəyənlərə tövsiyəm budur ki, bu cüzi və köksüz ixtilaflardan əl çəksinlər. Şayiə düzəltmək və yaymaq olmaz. İnsan görür ki, ölkə məmurlarına - ölkənin yükünü çiyninə götürən şəxslərə qarşı açıq-aşkar ittihamlar irəli sürür, şayiə yayırlar; fərqi də yoxdur - istər prezident olsun, istər parlamentin sədri, istər Quruluşun Məsləhətini Müəyyənləşdirən Məclisin başçısı, istər Ali Məhkəmənin sədri. Bunlar ölkənin məsul şəxsləridir. Ölkənin məsul şəxsləri bir sahənin rəhbərliyinin tapşırıldığı şəxslərdir. Xalqın bunlara etimadı olsun, inansın. Şayiə yaymaq lazım deyil. Düşmən bunu istəyir. Düşmən şayiə yaymaq, ürəkləri bir-birinə və məsul şəxslərə qarşı bədbin etmək istəyir.

# Çıxış yolları

## 1. Qanuna tabe olmaq

Ölkəmizin bütün məsələlərində qanunun meyar və son söz sayılmasına ehtiyacımız var. Əgər biz qanunçu olsaq, bu, həqiqətən xalqın həyatını yaxşılaşdıracaq, yollarda qoyulan yaşıl və qırmızı işıqlar kimi olacaq. Görün bu məsələyə riayət etməmək nə qədər problem yaradır. Siz avtomobilinizlə dörd yol ayrıcına çatırsınız, bir-iki dəqiqə yaşıl çıraq yanırdı və hamı gedirdi, lakin siz çatan kimi qırmızı oldu. Hər halda çətindir, gərək burada bir qədər dayanasınız. Sizin öz rahatlığınıza və istəyinizə görə qadağan olunmuş bu əraziyə girməyiniz sizdən on dəfə çox olan insan və avtomobillərə problem yaranmasına bais olar, yolda dayanıb gediş-gəlişi nizama salan polis də çətinliyə düşər. Qanuna riayət edin ki, bütün bu problemlər yaranmasın. Baxın, bu hər gün üzləşdiyimiz və əksərən də riayət olunan aydın bir misaldır. Qanun hər yerdə belədir. Əgər qanuna riayət olunsa, işlər yaxşı gedər, əgər qanunsuzluq baş alsa, işlər korlanar. Qanunsuzluq üçün də hərənin özünə görə bir dəlili var; biri deyir ki, bu qanun mənim hüququmu pozur, bu qanun belədir, filandır. Lakin bu dəlillər məqbul deyil.

Əgər qanunsuzluq baş alsa, işlər düyünlənər, nəqliyyatın hərəkəti ağırlaşar, tıxac yaranar, camaatın işi korlanar və hüquqları pozular. Hamı qanuna hörmət etməlidir. Mən sizə deyirəm ki, digər işlər kimi bu işin mədəniyyəti də aparıcı şəxslərdən cəmiyyətə koçürülməlidir. Əgər aparıcı şəxslər olan sizlər qanuna riayət etməsəniz, adi camaatın qanuna riayət etməsini gözləməyin. Siyasi, yaxud elmi elita iddiası edib öz sahəmizdə qanuna etinasız yanaşmağımız düzgün deyil.

Sözügedən məsələlərdə də mən qanunun icrasına israrlı idim, indi də israrlıyam və israrlı olacağam.

Qanun tələb edir ki, insan seçilmiş prezidenti qəbul etməsə də, qanuna hörmət etsin və tabe olsun. Təbii ki, heç kim seçilmiş prezidentin mütləq yaxşılıqdan və seçilməyən tərəfin mütləq qəbahətdən ibarət olduğunu deyə bilməz. Hamının yaxşı cəhəti də var, pis cəhəti də; bu tərəfin də, o tərəfin də. Lakin meyar qanundur.

Bir məsələni də əziz inqilabçı gənclərə, öz əziz övladlarlarıma, Bəsic üzvü olan qadın və kişilərə xatırlatmaq istəyirəm. Əcnəbilərin dini inanclarına təhqir etməsini eşidən, yaxud gözləri ilə görən gənclər qəzəblənirlər. Bir qrupun Aşura gününün hörmətini saxlamadıqlarını, İmam Hüseynə (ə) və hüseynçi əzadarlara hörmətsizlik etdiklərini görəndə ürəkləri ağrıyır, qəzəblə dolur. Sözsüz ki, bu təbiidir və onlar haqlıdırlar. Lakin mən demək istəyirəm ki, əziz gənclər ehtiyatlı olsunlar. Hər hansı düşünülməmiş iş düşmənə kömək ola bilər. Gənclər buraya zəng vururlar; mən bilirəm, oxuyuram. Çox zaman telefon zənglərini və məktubları xülasə edib gətirirlər və mən hər gün baxıram; görürəm ki, gənclər gileylidirlər, narahat olmuş və əsəbiləşmişlər. Bəzən məndən də gileylənirlər ki, nə üçün filankəs səbir edir, nə üçün bunlara dözür. Mən deyirəm: Düşmənin bütün varlığı və imkanları ilə bir fitnə hazırlayıb təhlükəli bir oyuna başladığı şəraitdə ehtiyatlı olmaq, həmin oyunda ona kömək etməmək, çox ehtiyatla, ağılla və öz zamanında qətiyyətlə davranmaq lazımdır. Aidiyyətli qurumlar var, qanun var. Qanun çox dəqiqliklə və qəti şəkildə icra olunmalıdır. Rəsmi vəzifə və məsuliyyəti olmayan şəxslər isə işləri korlayırlar. Allah-Taala bizə belə əmr etmişdir: "Hər hansı bir camaata qarşı

kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır". Bəli, bir qrup düşmənlik, bir qrup xəbislik edir, bir qrup da xəbislik edənləri dəstəkləyir. Bunlar var, amma ehtiyatlı olmaq lazımdır. Əgər insan bəzi məsələlərdə diqqətsiz davransa, onlara nifrət edən günahsız insanlar da tapdanacaqlar. Bu baş verməməlidir. Mən əziz gəncləri, öz inqilabçı övladlarımı özbaşına bir iş görməkdən çəkinməyə çağırıram. Hər şey qanuni yolla həll olunmalıdır.

## 2. Aparıcı şəxslərin quruluşa etimad göstərməsi

Siyasi elita və aparıcı şəxslər öz sözlərinə və işlərinə diqqət yetirsinlər. Bu, bütün aparıcı şəxslərə müraciətdir, xüsusi bir tərəfə, xüsusi bir cinaha yox. Hamı ehtiyatlı olmalıdır. Hamı bilsin ki, bu xalq bütöv bir xalqdır. Biri bu tərəfin hisslərini o tərəfin əleyhinə təhrik edir, o biri də o tərəfin hisslərini bu tərəfinə əleyhinə. Bunların faydası yoxdur. Siz bir olduqda, yekdil olduqda, ölkənizə və quruluşunuza etimad göstərdikdə beynəlxalq şeytanların, zalım, müdaxiləçi və insaniyyətdən uzaq siyasətçilərin vəsvəsələri sizə təsir etməyəcək.

Seçkilərdən sonra yaradılan və dəstəklənən bütün bu çaxnaşmalar inqilabın ictimai dayağına zərbə vurmaq və onu inqilabdan almaq üçün idi. Mən dedim ki, xalqın bu quruluşa inanmasına sübut qırx milyon nəfərin seçkilərdə iştirak etməsidir. Əcnəbi radiolar və təəssüf ki, daxildən onların səsinə səs verənlər daim təkrar və təkid edirdilər ki, xalqın quruluşa inamı yoxdur. Bu, həmin sözün cavabıdır. Biz orada dedik ki, xalqın 85 faizinin seçkilərə qatılması, qırx milyon insanın seçki məntəqələrinə gəlib

hər hansı bir namizədə səs verməsi xalqın quruluşa inamını göstərir. Həqiqətən də belədir. Bunlar bu sözün yalan olduğunu göstərmək üçün təkrar-təkrar təbliğat apardılar ki, xalqın inamı sarsılıb, nə edək? Bəzi adamlar da qayğıkeş görkəmində dedilər ki, inamın qayıtması üçün nə edək? Xalq quruluşa inanır, quruluş da xalqa. İnşallah iki-üç ildən sonrakı seçkilərdə də bu xalq müxaliflərin, düşmənlərin, daxildəki qafil və bixəbərlərin həmin aktyorluğuna rəğmən, seçkilərdə yüksək səviyyədə iştirak edəcək.

## 3. Agahlıq əldə etmək

Əgər sizə bir tövsiyə etmək istəsəm, o tövsiyə agahlığınızı artırmaq barədə olar. Xalqların başına gələn bəlalar çox zaman agahlığın olmamasından irəli gəlir. Görürsünüz ki, öz cəmiyyətimizdə də bəzi adi insanlar və daha çox aparıcı şəxslər səhvlər edirlər. Aparıcı şəxslərin daha az səhv etməsi gözlənilir, lakin səhvləri say baxımından olmasa da, nəticə etibarilə adi camaatın səhvlərindən çoxdur. Bəzi insanların bu səhvləri agahlığın olmamasına görədir; hamısını demirik, amma çoxları belədir.

Öz agahlığınızı artırın, yüksəldin. Mən Əmirəl-mömininin (ə) zənnimcə Siffeyn döyüşündə buyurduğu bu sözünü dəfələrlə demişəm: "Bu bayraq yalnız agah və dözümlü insanlar tərəfindən götürülər". Bilirsiniz ki, Əmirəl-mömininin (ə) işi bəzi cəhətlərinə görə Peyğəmbərin (s) işindən çətin idi. Çünki Peyğəmbərin (s) dövründə düşmən də bəlli idi, dost da. Əmirəl-mömininin (ə) bayrağı altında olanların dost və ya düşmən olması isə o qədər də aydın deyildi; düşmən də dostun dediyi sözləri deyirdi. Cəməl, Siffeyn və Nəhrəvan döyüşlərində Əmirəl-

mömininin (ə) düşərgəsində qılınan camaat namazından qarşı tərəfdəki düşərgədə də qılırdılar. Əgər siz olsanız, nə edərsiniz? Sizə deyirlər ki, qarşı tərəf haqsızdır. Siz deyirsiniz ki, belə namaz qılan və ibadət edən tərəf?! Onların bəziləri, məsələn Xəvaricdən olanlar çox ibadət edirdilər. Əmirəl-möminin (ə) gecə qaranlıqda Xəvaricin düşərgəsində gəzərkən birisinin gözəl səslə Quranın bu ayələrini oxuduğunu eşitdi: "Məgər axirətdən qorxan, Rəbbinə ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən (müti bəndə kafirlə birdirmi)?!" Gecənin yarısı çox yanıqlı və təsirli səslə Quran oxuyurdu. Həzrət Əlinin (ə) yanında olan bir nəfər dedi ki, ey Əmirəl-möminin, bu ayəni belə gözəl şəkildə oxuyan bu şəxsin xoş halına! Kaş mən onun bədənində bir tük olub, sayəsində cənnətə gedəydim!

Nəhrəvan döyüşü başlandı. Düşmənlər məğlub edilib öldürüldükdən sonra Əmirəl-möminin (ə) düşmən ölülərinin yanından keçir, üzü üstə düşmüş bəzi cəsədləri qaldırmağı əmr edir və onlarla danışırdı. Onlar ölmüşdülər, amma öz səhabələrinin eşitməyi üçün belə edirdi. Birini də qaldırmalarını söylədi; qaldırdılar. O gecə imamın yanında olan şəxsə buyurdu ki, bunu tanıyırsanmı? Cavab verdi ki, xeyr. Dedi ki, bu, bədənində bir tük olmanı arzuladığın şəxsdir. O gecə Quranı elə yanıqlı oxuyurdu, amma burada canlı Quranın, yəni Əmirəl-möminin (ə) qarşısında qılınc çəkir; çünki agahlıq yoxdur, vəziyyəti dərk edə bilmir. Mən bu siyasi səhnələri dəfələrlə döyüş cəbhəsinə bənzətmişəm. Əgər siz hərbi döyüşdə coğrafi koordinatları bilməsəniz, böyük səhvlər yarana bilər. Məhz buna görə yerləri təyin etməyə gedirlər. Hərbdə mühüm işlərdən biri məlumatdır; dəqiq məlumat. Yəni gedib görsünlər ki, düşmən haradadır, necədir,

mövqeyi necədir, törədə biləcəyi təhlükə nədir və ona qarşı nə etməlidirlər. Əgər kimdəsə bu məlumatlar olmasa, ərazini tanımasa, düşməni itirsə, bir də görərsiniz ki, raket və toplarını düşmənlərinin yox, dostlarının olduğu səmtə çevirib atəş açır; çünki bilmir. Siyasi səhnə də eynilə belədir. Əgər agahlığınız olmasa, dostu və düşməni tanımasanız, bir də görərsiniz ki, sizin təbliğat topunuzun atəşi, sizin söz və əməlləriniz dostlarınızın yerləşdiyi səmtə yönəlmişdir. İnsan düşməni tanımalıdır. Düşməni tanımaqda səhv etməməliyik və bunun üçün agahlıq lazımdır.

## 4. Maarifləndirmə və aydınlatma

Görkəmli və aparıcı şəxslərin mühüm işlərindən biri maarifləndirmədir. Onlar həqiqətləri təəssübsüz şəkildə, qrup və cinah maraqlarının təsiri olmadan aydınlatmalıdırlar. Bunlar zərərlidir. Cinah və bu kimi məsələləri kənara qoyub həqiqəti anlamaq lazımdır. Siffeyn döyüşündə cənab Əmmar Yasirin mühüm işlərindən biri həqiqəti başa salmaq idi. Çünki qarşıdakı Müaviyə cinahı müxtəlif təbliğatlar aparırdı. Bu gün psixoloji müharibə adlanan məsələ yeni kəşflərdən deyil, onun üsulları fərqlənmiş, özü isə əvvəldən olmuşdur. Onlar bu psixoloji müharibədə çox püxtələşmişdilər. İnsan onların işlərinə baxanda psixoloji müharibədə necə peşəkar olduqlarını görür. Digər tərəfdən də zehinləri çaşdırmaq onları bərpa etməkdən asandır. Sizə bir söz deyəndə qəlbinizdə şübhə yaranır. Bədgümanlıq yaratmaq asan, onu beyindən silmək isə çətindir. Onlar da şübhə yayır, bədgümanlıq yaradırdılar. Bu, asan idi. Bu tərəfdən özünü bu psixoloji müharibənin qarşısında dayanıb müqavimət göstərməyə borclu bilən şəxs cənab Əmmar

Yasir idi. Siffeyn döyüşünün hadisələrində yazmışlar ki, atla cəbhənin o tərəf-bu tərəfinə və öz qoşunlarının müxtəilf sıralarına gedir, bugünkü sözlə desək, bir-birindən ayrı düzülmüş batalyon, yaxud alayların hansına çatırdısa, onların qarşısında dayanır, bir qədər söhbət edir, qaranlıq məsələləri aydınlaşdırır və təsir göstərirdi. Bir yerdə ixtilaf yarandığını və bir qrupun şübhəyə düşdüyünü görən kimi cəld özünü oraya çatdırır, onlarla söhbət edir, məsələni başa salır və işləri yoluna qoyurdu.

## 5. Cəmiyyətdə sabitliyi qorumağa çalışmaq

Bu otuz ildə elə bir gün olmayıb ki, biz təcrübə toplamayaq və bir şey öyrənməyək. Son hadisələrdə də çox şeylər öyrəndik, çox şeylər anladıq. Bu bizim xalqımız üçün təcrübə oldu. Hamı bildi ki, xalq sabit şəraitdə sürətlə hərəkət etdiyi zaman onun üçün plan hazırlayan düşmənləri unutmamalıdır. Hamı qırx milyonluq bir seçkidən, inqilabın əvvəlindən indiyədək görünməyən möhtəşəm işdən, otuz ildən sonra xalqın səhnədə qalmasından, xalqı cəlb edib quruluş üçün səhnəyə gətirmək gücündən danışdı. Bəli, bu bir əzəmət idi, amma diqqətsizlik yolverilməzdir. Hamı anladı ki, belə bir vəziyyətdə düşmənin pusqu qurub gözlədiyini unutmaq olmaz.

Bu gün cəmiyyəti iğtişaşa və çaxnaşmaya sövq edən şəxs bütün İran xalqının nəzərində mənfur insandır; kim olur-olsun. Bu xalq yalnız sabitlik və təhlükəsizlik şəraitində hər hansı bir məqsədə nail ola bilər. Təhlükəsizlik olduqda təhsil də var, elm də var, inkişaf da var, sənaye də var, sərvət də var, müxtəlif rahatlıqlar da

var, ibadət də var. Dünya və axirət təhlükəsizliyin sayəsində əldə edilir. Xaos yarandıqda isə bunların hamısı sıradan çıxır. Bir xalqın təhlükəsizliyini pozmaq ən böyük günahdır. Təbii ki, bu barədə göstəriş alan muzdur buna qulaq asmayacaq. Biz bu sözləri ona demirik. Bizim müraciətimiz aparıcı şəxslərədir. Xalq sayıqdır; aparıcı adamlarımız da sayıq olsunlar.

Aparıcı şəxslər bilsinlər ki, onlara kömək edən hər bir söz, hər bir hərəkət və hər bir təhlil xalqın əksinə hərəkət etməkdir. Bizim hamımız çox ehtiyatlı olmalıyıq; çox ehtiyatlı olmalıyıq: danışığa, mövqe bildirməyə, nəyi deməyin və nəyi deməməyin lazım olduğuna diqqət yetirməliyik. Bəzi sözləri demək lazımdır; əgər deməsək, vəzifəmizə əməl etməmişik. Bəzi sözləri söyləməmək, deməmək lazımdır. Əgər desək, vəzifənin ziddinə əməl etmiş olarıq. Aparıcı şəxslər imtahan otağındadırlar. Böyük bir imtahan gedir. Bu imtahandan kəsilməyin nəticəsi yalnız bir il geri düşmək deyil, süqutdur. Əgər buna düçar olmaq istəmiriksə, insanı bəndəliyə dəvət edən ağlı meyar seçməliyik.

Ağıl bu siyasətbazlıqları tövsiyə etmir. Bunlar ağlın ziddinədir. Ağıl insanı doğru yola yönəldir. Siyasətbazlıqla ağıllı rəftar etdiklərini düşünənlər səhv edirlər. Xeyr, ağıl Allaha ibadət yolunu açan amildir. Özümüzlə Allah arasında meyar budur ki, bu sözü deməkdə ixlasımızın olub-olmadığına baxaq; görək Allahı düşünürük, yoxsa yox? Mən Allahdan ötrü və Allahın razılığı üçün danışıram, yoxsa sizin diqqətinizi cəlb etməkdən ötrü? Allahdan ötrüdür, yoxsa insanların ürəyindən ötrü? Meyar budur. Özümüzə müraciət edək. İnsan üçün ən yaxşı hakim onun özüdür. Özümüzü

aldatmayaq, nə iş gördüyümüzü, nə dediyimizi və hansı hərəkəti etdiyimizi bilək.

Bizim xalqımız mərhum imamı təhqir etmələrinə görə qəzəbləndi, onlara arxa çevirdi. Buna haqları da var; lazım və yaxşı idi, lakin təmkinli olsunlar. Tələbələrdən də bunu istəyirik: sabitliyi qoruyun. Sizin qarşınızda dayanan bu şəxslər köklü, qalası, bu xalqın və bu inqilabın qarşısında tab gətirəsi şəxslər deyillər. Hər şey sakit şəkildə həyata keçsin.

Əgər haçansa lazım olsa, məmurların, qanunun və qanun keşikçilərinin özləri vəzifələrini yerinə yetirəcəklər. Əlbəttə, bunları tanıtdırsınlar. Tələbələrin özləri universitetdə fəsad mənbəyi olan şəxsləri tanımağa və bu haqda digərlərini də məlumatlandırmağa borcludurlar. Bunun özü düzgün və doğru bir təbliğatdır. Agah etsinlər, bunların rabitələrini, istiqamətlərini bilsinlər. Lakin hər şey sakit şəkildə görülsün.

Cəmiyyətdə gərginlik, iğtişaş və çəkişmənin yaranması məsləhət deyil. Düşmən bunu istəyir; düşmən cəmiyyətin qarışmasını istəyir. Təhlükəsizlik mühüm məsələdir. Xalqın təhlükəsizliyinin düşmənləri onun xaos vəziyyətində yaşamasını, narahat olmasını, bezməsini və əsəblərinin pozulmasını istəyirlər. Biz bunu istəmirik. Biz istəyirik ki, xalq sakit həyat yaşasın; tələbə dərs oxuya, alim tədqiqat apara, sənətkar, əkinçi, tacir bütün işlərini görə bilsinlər. Universitet də dinc yer olmalıdır. Xalqın gəncləri bu universitetlərə toplaşmışlar. Xalq gənclərinin sakit mühitdə təhsil almasını istəyir. Universitetləri bu iğtişaşlarla qarışdıran şəxslər xalqa qarşı çıxırlar, onun önündə dayanırlar. Sözsüz ki, qanuni orqanların da üzərinə vəzifələr düşür. Onlar bu vəzifələrə əməl etməlidirlər.

Bilin ki, Quranın mübarək "Köpük heç bir şey olmadığı üçün uçub gedər, insanlara fayda verən bir şey isə yer üzündə qalar" ayəsinin sizin dövrünüzdə tam real bir nümunəsi var və siz bunu görəcəksiniz. Allahın lütfü ilə görəcəksiniz ki "insanlara fayda verən bir şey yer üzündə qalar". İlahi quruluş olan, bünövrəsi də ilahi bir insan tərəfindən qoyulan və bu əzəmətli xalqın iradə və imanı ilə davam etdirilən bu uca quruluş möhkəm qalacaq, bu ağac inşallah günbəgün daha çox kök salacaq və siz bu müxaliflərin, bu quruluşa, bu haqqa və həqiqətə qarşı çıxan şəxslərin "köpük" olduğunu görəcəksiniz. Bunlar inşallah sizin gözünüz önündə məhv olacaqlar.

## 6. İslam Respublikasında birliyi qorumaq

İslam inqilabından doğan İslam Respublikası iki cəhətə malik olan vahid bir sistemdir: İslam cəhəti və xalq cəhəti; həm İslam quruluşudur, həm xalq quruluşu. Ona görə xalq quruluşudur ki, İslam quruluşudur və İslam cəmiyyətin dinidir, ümumi məsuliyyət dinidir. İslam ayrı-ayrı fərdlərin dini deyil. O da var, lakin fərdlər cəmiyyət olaraq da İslamın müraciət tərəfidirlər. İslam bir xalq dinidir, ümumi məsuliyyət dinidir. Buna əsasən, xalq quruluşu olması İslam quruluşu olmasından irəli gəlir. Və ona görə İslam quruluşudur ki, Allah-Taala belə minnət qoymuşdur: "Sizi imana müvəffəq etməklə, əslində Allah sizin boynunuza minnət qoymuşdur". Bizə minnət qoymuş, bizi bu imana hidayət etmişdir. Allah bizim xalqımıza, bizim özümüzə minnət qoyub bizi bu dinə yönəltmişdir. Buna görə bizim toplumumuz İslamı istəyir və bu ilahi dini bizə verdiyinə görə Allaha şükür olsun! Deməli, İslam

Respublikasıdır, bir sistemdir, bir topludur, yaxud bir-biri ilə mülahizə olunmalı, bir olmalı və bu birliyin qorunmalı olduğu vahid sistemdir. Bu cəhətlərin hansı zəifləsə, bütün toplu və sistem zəifləyəcək.

Vilayət və rəhbərlik məsələsi də həmin sistemə sadiq olmaqdır; istər məsumların vilayətinə, istər onun davamı olan fəqih vilayətinə. Ölkədə və quruluşda bu sistemə sadiqlik və onu qorumaq iradəsi var; təcrid olunmasın, onun üçün problem yaranmasın, nöqsan və ayrıseçkilik yaranmasın, kompelks şəkildə hərəkət və inkişaf etsin. İmamın buyurduğu əsl İslam məsələsi də budur. Çünki imam əsl İslamı Amerika İslamı qarşısında qoyurdu. Amerika İslamı yalnız Amerikanın bəyəndiyi İslam deyil, əsl İslamdan xaric olan hər bir şeydir; şahlıq İslamı da belədir, eklektik (qatqılı) İslam da belədir, kapitalist İslam da belədir, sosialist İslam da belədir; müxtəlif forma və rənglərlə təqdim olunan və əsas elementlərin mövcud olmadığı islamların hamısı əsl İslamın qarşısında durur və Amerika İslamıdır.

Bu otuz ildə bizim quruluşumuza qarşı aparılan mübarizələrdə müxtəlif islamlar iştirak etmişdir; həm eklektik İslam, həm şah İslamı, həm sosialist İslam. Bu müxtəlif islamlar İslam Respublikası quruluşu ilə mübarizə aparmışlar. İslama bu baxışda və İslam haqda bu dərkdə fərd və cəmiyyət birgə nəzərə alınır, mənəviyyat və ədalət birgə nəzərə alınır, şəriət və ağıl birgə nəzərə alınır, hissiyyata və qətiyyətə birgə baxılır. Bunların hamısı olmalıdır; qətiyyət öz yerində, emosiya öz yerində, şəriət öz yerində, şəriətdən xaric olmayan ağıl da öz yerində; hamısından bir-birinin kənarında istifadə olunmalıdır. Bu güclü sistemdən yayınma İslam quruluşundan yayınmaya bais olur.

# 7. Cəmiyyətdə etimad və qardaşlıq ab-havası yaratmaq

Cəmiyyətdə qardaşlıq, mehribanlıq və etimad ab-havası yaratmalıyıq. Mən cəmiyyətdə bədgümanlığın yayılması ilə əsla müvafiq deyiləm. Biz bu adətləri özümüzdən uzaqlaşdırmalıyıq. Təəssüf ki, bu gün günbəgün daha artmaqda, genişlənməkdə və mürəkkəbləşməkdə olan müxtəlif informasiya vasitələrinin, qəzetlərin və media qurumlarının bir-birini ittiham etməsi geniş yayılmışdır. Bu yaxşı hal deyil; bizim qəlbimizi qaraldır, həyatımızı zülmətə çevirir. Heç bir ziddiyyəti yoxdur ki, günahkar öz günahının cəzasını çəksin, lakin mühit günahlandırmaq, ittiham etmək, şayiə və xəyallarla digərlərini günahlandırmaq mühiti olmasın. Mən burada bunu da deyim: Televiziyadan yayımlanan məhkəmə iclaslarında bir müttəhimin başqa bir şəxs haqqında nəsə deməsi şəriət baxımından mötəbər sayılmır. Bəli, müttəhim məhkəmədə özü haqda nə desə, mötəbərdir; özü barədə etdiyi etiraflar mötəbər sayılır. Müttəhimin bir məhkəmədə kamera önündə, milyonlarla tamaşaçı qarşısında öz əleyhinə etdiyi bütün etiraflar şəriət və el adətləri baxımından məqbuldur, keçərlidir, digəri haqda dedikləri isə qəbul olunmur. Cəmiyyəti ittiham və şübhə ilə doldurmaq olmaz. Quran buyurur: "Məgər o yalan sözü eşitdiyiniz zaman mömin kişilər və qadınlar öz ürəklərində yaxşı fikirdə olub: “Bu, açıq-aydın bir böhtandır!” – deməli deyildilərmi?" Birinin ittiham edildiyini eşitdikdə nə üçün bir-birinizə qarşı bədbin olursunuz? İcra və məhkəmə orqanlarının vəzifəsi öz yerində. İcra orqanları cinayətkarı təqib etməli, məhkəmə orqanları isə qanunlarımızda göstərilən şəkildə

cəzalandırmalıdırlar. Bu işdə səhlənkarlığa yol vermək olmaz. Lakin qanuni yollarla cinayəti sübut olunmuş cinayətkarın cəzalandırılması gümanla, xəyalla və böhtanla birini ittiham və bədnam etməmizdən, cəmiyyətdə ağızlara salmamızdan fərqli bir şeydir. Belə olmaz. Bu düzgün deyil. Yaxud digərləri – xaricilər, əcnəbilər və qərəzli televiziya kanalları bir şəxsin, yaxud şəxslərin əleyhinə danışır, filan yerdə xəyanət etdiyini, filan yerdə səhvə yol verdiyini iddia edirlər. Biz də onu eynilə yaymalıyıq?! Bu zülmdür, məqbul deyil. Əcnəbi informasiya vasitələrinin ürəyi bizə nə zaman yanmışdır?! Nə zaman bizim haqqımızda həqiqətləri söyləmişlər ki, indi də söyləmiş olsunlar?! Deyirlər, danışırlar, iddia edirlər. Bunları şəffaflıq adlandırmaq olmaz. Bu, şəffaflıq deyil, şübhə yaratmaqdır. Şəffaflığın mənası budur ki, İslam Respublikasında bir məmur öz işlərini açıq şəkildə xalqın ixtiyarına qoysun. Şəffaflığın mənası budur və bunu etməlidirlər. Lakin bizim sübut olunmadan onu-bunu ittiham etməyə, doğruluğu mümkün olan, lakin hələ sübuta yetməmiş məsələləri kiməsə aid etməyə haqqımız çatmır. Bu onu müttəhim edir, o bunu; əcnəbi mediadan, qərəzli İngiltərə mediasından faktlar göstərirlər, sonra da o tərəfdən biri peyda olub bütün quruluşu İslam quruluşuna yaraşmayan şəkildə ittiham edir. İslam quruluşunun məqamı bəzilərinin aid etdiklərindən olduqca ucadır. Bu irad onlara daha çox yapışır. Bir şəxsə böhtan atmaq günahdır, bir İslam quruluşuna, bir təşkilata böhtan atmaq isə olduqca böyük günahdır.

Mənim təkidim budur ki, hamı, bütün İran xalqı, müxtəlif siyasi cinahlar bu inqilabın və ölkənin müstəqilliyinə qarşı çıxan, ölkəni ikiəlli Amerika və hegemonluğa təqdim etmək istəyən azsaylı şəxslər

qarşısında bir olsunlar. Bütün xalqların daxilində düşmənin belə ünsürləri var. Bizim xalqımızın arasında da belə insanlardan az da olsa, tapılır. Xalqın özünü, kütlələri, aparıcı və adi insanlardan ibarət olan əzəmətli toplumu həmin azsaylı satqın ünsürlərdən ayırmaq lazımdır; səhv salınmamalıdır. Bəzi fikirlərdə, bəzi sözlərdə vəziyyət elə qarışdırılır ki, insanlar çaş-baş qalırlar, xalq bir-birinə, görkəmli şəxslərinə və məmurlarına bədbin olur. Bu düzgün deyil.

Bəziləri - istər mətbuat, istər müxtəlif ünsürlər tövsiyə qəbul etmirlər, bizdən tövsiyə istəmirlər. Bəzi qurumların və media orqanlarının siyasətlərini kimin təyin etdiyi, haradan təyin olunduğu bəlli deyil. Onların çörəyi ixtilaf salmaqdan çıxır. Lakin ölkənin maraqlarını və həqiqətin hakim olmasını istəyənlərə tövsiyəm budur ki, bu cüzi və köksüz ixtilaflardan əl çəksinlər. Şayiə düzəltmək və yaymaq olmaz. İnsan görür ki, ölkə məmurlarına - ölkənin yükünü çiyninə götürən şəxslərə qarşı açıq-aşkar ittihamlar irəli sürür, şayiə yayırlar; fərqi də yoxdur - istər prezident olsun, istər parlamentin sədri, istər Quruluşun Məsləhətini Müəyyənləşdirən Məclisin başçısı, istər Ali Məhkəmənin sədri; bunlar ölkənin məsul şəxsləridir. Ölkənin məsul şəxsləri bir sahənin rəhbərliyinin tapşırıldığı şəxslərdir. Xalqın bunlara etimadı olsun, inansın. Şayiə yaymaq lazım deyil. Düşmən bunu istəyir. Düşmən şayiə yaymaq, ürəkləri bir-birinə və məsul şəxslərə qarşı bədbin etmək istəyir.

## 8. Prinsipləri unutmamaq İslam, konstitusiya, imamın buyruqları, vəsiyyətnaməsi və quruluşun ümumi siyasətləri

İnqilabın prinsipləri bəllidir. İnqilabın prinsipləri şəxsi üslublar deyil ki, hərə bir tərəfdən iddia qaldırsın, sonra o prinsiplərə baxdıqda inqilaba yad olduğunu görək. İnqilabın prinsipləri İslamdır, konstitusiyadır, imamın tövsiyələridir, imamın vəsiyyətnaməsidir, yazılması konstitusiyada müəyyən olunmuş ümumi siyasətlərdir. Bu çərçivədə fikir ayrılığı, üslub fərqi eyib deyil, yaxşıdır; zərərli deyil, faydalıdır. Belə çəkişmələrdə quruluş heç kimlə toqquşmur. İnsanlar prinsiplər çərçivəsində rəftar etdikləri, kobudluq göstərmədikləri, cəmiyyətin təhlükəsizliyini və sabitliyini pozmadıqları, belə yanlış işlər görmədikləri, yalan və şayiə yaymadıqları təqdirdə quruluşun heç kimlə bir problemi yoxdur. Müxaliflər var, onların öz fikirləri var və fikirlərini bəyan edirlər. Quruluşun bunlarla işi yoxdur.

İnqilab, imam və İslam üçün çalışan şəxs onun sözünün və hərəkətinin bu prinsiplər əleyhinə bir istiqamətin yaranmasına bais olduğunu görən kimi cəld ayılmalıdır. Nə üçün ayılmırlar? İslam Respublikasının ən əsas şüarı olan "İstiqlaliyyət, Azadlıq, İslam Respublikası" şüarından "İslam" sözünün çıxarıldığını eşidən kimi özlərinə gəlməli, getdikləri yolun səhv olduğunu bilməli və kənara çəkilməlidirlər.

## 9. Müxalif fikirlərlə düzgün rəftar

Mən ölkəmizin əhalisini, əziz xalqımızı iki hissəyə bölməklə, bir qrupu başqa bir qrupun qarşısında qoymaqla müxalifəm. Məsələ belə deyil. Çoxlu məsələlərdə xalqın baxışı və nəzəri bir deyil, amma bu, ziddiyyət, qarşıdurma, toqquşma və yaxalaşma sayılmır. Biz xalqımızı bir-biri ilə vuruşdurmamalıyıq. Mən hər iki tərəfə nəsihət verirəm ki, gənclərin hisslərini təhrik etməsinlər, xalqı bir-birinin qarşısında qoymasınlar. Xalq birdir, bir imanı, öz quruluşuna qarşı səmimi və yaxşı münasibəti var. Seçkilərdə belə iştirak etmələri bu yaxşı münasibətin əlamətidir. Əgər ümidvar olmasaydılar, əgər etimadları olmasaydı, səsvermədə iştirak etməzdilər. Deməli, bu xalqın öz quruluşu ilə heç bir problemi yoxdur. Bu vahid xalqı iki yerə parçalayıb bölmək, bir qrupu başqa bir qrup əleyhinə təhrik etmək olmaz.

İndi bu ayələr oxundu: "Allahın sizə verdiyi nemətini xatırlayın. Bir-birinizə düşmən ikən O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi xilas etdi". Siz bir-birinizlə qardaş oldunuz, İslam sizi təfriqə alovundan xilas etdi. Unutdunuzmu?! Daim bu onda səhv tutsun, o bunda; ikinci dərəcəli olanları birinci dərəcəli edək, əsl məsələləri unudaq və həmişə aramızda ixtilaf olsun?! Quran buyurur ki, hamılıqla Allahın ipinə sarılın. Burada deyilən "hamı" eyni səviyyədə deyil; bəzisinin imanı güclüdür, bəzisininki zəifdir, bəzisinin əməli daha yaxşıdır, bəzisininki orta həddədir. Eyni zamanda Allah-Taala hamıya müraciətlə deyir ki, hamılıqla Allahın ipinə sarılın, bu işi birgə görün. Sən deyirsən ki, mən təklikdə Allahın ipinə sarıldım, amma o birisi sarılmadı; o da deyəcək ki, mən də təklikdə Allahın

ipinə sarıldım. Belə olmaz. Bir-birinizə dözün. Təməl prinsiplər var, əsas məsələlər var. Əsas budur ki, bu prinsiplərdə yekdil olaq. İnsanların ikinci dərəcəli olan yüz məsələdə bir-biri ilə fikir ayrılığının olması mümkündür; bunun birliklə və birləşməklə ziddiyyəti yoxdur. Bunlar meyar olmalıdır. Sözlərimizdə diqqətli olaq. İkinci dərəcəli məsələlər üstündə digərlərini mütləq şəkildə rədd etmək məsləhət deyil. Bu gün İran xalqı yekdil xalqdır, bir xalqdır. Bu birliyin qədrini bilmək lazımdır. İxtilaf yaratmaq olmaz.

Mən son üç-dörd gündə baş verəh hadisələrdə də bəzi adamların daim ixtilafları artırmaq istədiklərini görürəm. Xeyr, ixtilaf yaranmamalıdır. Hamı bir-biri ilə qardaşdır, hamı bir-biri ilə həmkarlıq etməli, ölkəni qurmaq üçün bir-birinə kömək etməlidir. Əbəs yerə heç kimi ittiham etmək olmaz. Bir işdən ötrü kiminsə bütün səlahiyyətlərini əlindən almaq olmaz. İnsaflı olmaq, insafla əməl etmək, insafla danışmaq lazımdır. Allah-Taala düşmənlər barədə buyurur: "Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır". Əgər kiminləsə düşmənsinizsə, bu düşmənlik ona qarşı insafsızlıq və ədalətsizlik etməyə bais olmasın; hətta düşmən olsa belə. Burada isə düşmən də yoxdur. Hamı ədalətsizliyi kənara qoysun; hamı insafsızlığı kənara qoysun; hamı İslam quruluşunun və İslam Respublikasının bayrağı altına toplaşsın.

Prinsiplər var və hamı o prinsiplərə sadiqliyini elan etməlidir. Bir-birinin kənarında olsunlar; üslub fərqləri də olsa, eybi yoxdur. Üslub fərqi həmişə olmuşdur. Müxtəlif dövrlərdə olan bu üslub və dərk fərqləri harada nəfsi istəklərlə qarışmışsa, iş korlanmışdır. Nəfsdən çox ehtiyatlı olmaq lazımdır. Nəfsə aldanmaq məsələsində

özümüzə bədgüman olmalıyıq. Baxıb görək harada bizim nəfsi istəklərimiz var və harada yoxdur. Həqiqətən vəzifə hiss etmək və vəzifə dairəsindən kənara qədəm qoymamaq üçün diqqətli olmaq lazımdır. İfratçılıq etmək olmaz. Bunlara əməl olunsa, bu günə qədər olduğu kimi, inşallah bundan sonra da Allahın lütfü bizimlə olacaq.

## 10. Quruluşun və ölkənin müxalifləri qarşısında xalqın və siyasi cinahların birliyi

"Əmirəl-mömininin (ə) fəzilətləri" adlı qalın kitabın bir sətri budur ki, bu həzrət özünün macəra dolu həyatı boyu bəzi məsələlərə, o cümlədən ədalət və birlik məsələsinə böyük əhəmiyyət göstərmişdir. Bunlar bizim üçün dərsdir. İslam ümmətinin birliyi Əmirəl-möminin (ə) üçün mühüm məsələ idi. İslam ümməti arasında ədalətin bərqərar olunması da Əmirəl-möminin (ə) üçün mühüm məsələ idi. O həzrətin haqsevərliyi hər iki yerdə özünü göstərir; həm ədalətdən ötrü öz həyatının ən çətin sınaqlarına dözdüyü yerdə, o çətinlikləri, ağır zəhmətləri və məcbur olduğu müharibələri edərkən (qısa hakimiyyəti dövründə üç müharibəyə getməli olur, çünki ədalət istəyir və burada da haqqı qətiyyətlə izləyir), həm də Allaha görə, İslamın mənafeyindən və müsəlmanların birliyindən ötrü özünün qəti haqqına göz yumub mübarizə etməyəndə. O, İslamı, müsəlmanları, İslam cəmiyyətini və İslam birliyini həmişə qoruyur.

"İslam məsələsinin, İslam mənafeyinin və İslam cəmiyyətinin maraqlarının ortada olduğunu gördükdə sükutu düzgün saymadım və birlik yaratmaq üçün meydana atıldım". Bu, Peyğəmbərin (s) vəfatından sonrakı

birinci dövrə - Əmirəl-mömininin (ə) çətin dövrünə aiddir. Orada da haqqı qətiyyətlə izləyir. Bu haqq burada birlikdir. Bunlar bizim üçün dərsdir.

İslam cəmiyyəti bütün dövrlərdə ədalətsizlikdən ziyan görmüşdür; insanların bir-birindən ayrılmasından, bir-birinin qarşısında dayanmasından, parçalanma və nifaqdan ziyan görmüşdür. İslam dünyası bu məsələlərdən ziyan görmüşdür. Siz İslam tarixinə, xüsusən də son əsrlərə baxsanız, bunu daha aydın görərsiniz. İslam dünyası birliyə ehtiyaclıdır. Əmirəl-möminin (ə) İslam dünyasının birlik amili ola bilər. İslam düşmənləri vəhdət və birlik amili olan Əmirəl-möminin (ə) vasitəsi ilə müsəlmanlar arasında ixtilaf yaratmaq istəyirlər. İslam dünyası sayıq olmalıdır.

İran xalqı da bu məsələyə diqqət yetirməlidir. Biz bir xalqıq; İslam bizi birləşdirdi, inqilab bizi oyatdı, qəlblərimizi bir-birinə yaxınlaşdırdı, maraqlarımızı bir-birinə düyünlədi. Biz İslam quruluşunun, İslamın, müsəlmanların və İranın düşmənləri qarşısında möhkəm və güclü bir yumruq olduq. Düşmən bu birliyi pozmaq üçün münasib zamanı gözləyir. Xalqın arasına təfriqə salmağa, ixtilaf toxumu səpməyə çalışır, qardaşları bir-birinin qarşısında qoyurlar. İran xalqı sayıq olmalıdır.

İran xalqının möhtəşəm şəkildə iştirak etdiyi izdihamlı 22 xordad seçkilərində böyük iş görüldü. Təxminən 40 milyon insanın, yəni səsvermə hüququ olanların 85 faizinin seçki məntəqələrinə getməsi dünyada bənzərsiz rəqəmlərdəndir. Bu, İran xalqı üçün böyük imic yaratdı, bu böyük xalq üçün böyük iqtidara və inqilab üçün hörmətə səbəb oldu; göstərdi ki, inqilab otuz ildən sonra xalqı bu şəkildə səhnəyə çıxarmaq gücünə malikdir. Düşmənlər xalqın arasında ixtilaf yaratmağa çalışdılar və

müəyyən həddə uğur da qazandılar. Lakin xalq düşmənin hərəkətini zərəsizləşdirməlidir.

İslam Respublikası quruluşunun siyasəti aydındır. Prezidentliyə namizədlərin arasında rəqabət bizim fikrimizcə ailədaxili bir rəqabətdir. Bəzən qəzəblənmələr də olur. Ailə daxilində iki qardaşın bir-birinin qarşısında dayanması da mümkündür. Bunun düşmənə və özgəyə nə aidiyyəti var?! Siyasət və informasiya sahələrində bu meydana atılan əcnəbilərin niyyəti ixtilaf və parçalanma yaratmaq idi.

İslam Respublikası məmurlarının yüz məsələdə fikir ayrılıqları olsa da, düşmən qarşısında dayanmaqda, bu ölkənin müstəqilliyini qorumaqda hamısı yekdil və həmrəydirlər. Bunu düşmənlər bilsinlər; elə bilməsinlər ki, xalqın arasında parçalanma yarada bilərlər.

Mənim bütün İran xalqına tövsiyəm budur: Bu gün bizə hər şeydən çox sayıqlıq, dostu və düşməni tanımaq lazımdır. Dostu düşmənlə səhv salmayın. Məbada dost və düşməni qarışdırasınız. Məbada düşmənlə lazım olan rəftarı dostla edəsiniz. Bu bütün cinahlara müraciətdir.

Məbada düşməni dostla qarışdırasınız. Dostu bir səhvinə görə düşmən edə və qarşı tərəfdən, bəzi adamlar qan düşmənlərini dost bilib sözlərini dinləyələr.

Sözsüz ki, məmurlar da, seçilmiş prezident də xalqın bu rəğbətinin dəyərini bilsin. Xalqın bu diqqətinin şükrü onun problemlərini həll etmək üçün tam və hərtərəfli xidmətdən, ölkəni inkişaf etdirməkdən və böyük İran xalqının birliyini qorumağa çalışmaqdan ibarətdir. Bunlar mövcud həqiqətlərdir. Siz İran xalqı bu dönəmdə böyük iş gördünüz, böyük hərəkət etdiniz. Allah-Taala öz qüvvə və qüdrəti ilə bu hərəkətə bərəkət verəcək və onu gücləndirəcək.

Məmurların şükrü xidmət etməkdir, xalqın şükrü birliyi, vəhdəti, sayıqlığı və qardaşlığı qorumaq, bir-birinə mehriban baxmaqdır. Düşmən buna mane olmağa çalışır. Siz də düşməni qəzəbləndirən işi görməyə çalışın. Dövrün imamının müqəddəs qəlbini sevindirən amil İran xalqının birliyi, mehribanlığı, həmkarlığı, fəallığı və inqilabçı hərəkətidir.

## 11. Məmurlar əleyhinə şayiə yaymaqdan çəkinmək və psixoloji hücum qarşısında dayanmaq

Şayiə düzəltmək və yaymaq olmaz. İnsan görür ki, ölkə məmurlarına - ölkənin yükünü çiyninə götürən şəxslərə qarşı açıq-aşkar ittihamlar irəli sürür, şayiə yayırlar; fərqi də yoxdur, istər prezident olsun, istər parlamentin sədri, istər Quruluşun Məsləhətini Müəyyənləşdirən Məclisin başçısı, istər Ali Məhkəmənin sədri; bunlar ölkənin məsul şəxsləridir. Ölkənin məsul şəxsləri bir sahənin rəhbərliyinin tapşırıldığı şəxslərdir. Xalqın bunlara etimadı olsun, inansın. Şayiə yaymaq lazım deyil. Düşmən bunu istəyir. Düşmən şayiə yaymaq, ürəkləri bir-birinə və məsul şəxslərə qarşı bədbin etmək istəyir.

# Quruluşun mövqeyi

## Etirazları yalnız qanuni yolla araşdırmaq

Bu məsələlərdə də mən qanunun icrasına israrlı idim, indi də israrlıyam və israrlı olacağam; yəni ölkəmizin və İslam Respublikasının qanunlarından bir addım kənara çıxmayacağıq. Şübhəsiz, bu quruluş və bu xalq nəyin bahasına olursa-olsun, zoru qəbul etməyəcək.

Qanunçuluğun və qanuna tabe olmağın qarşı tərəfi də diktatorluqdur. Bunu da dostlar mütləq bilirlər və əgər bilmirlərsə, bilsinlər ki, bizim hamımızın psixologiyamızda diktatorluğa bir meyl var; bunu cilovlamaq lazımdır. Qeyd etdiyimiz kimi, daxildəki bu məst fili qanun, din və bəndəlik çəkici ilə daim yolda saxlamalıyıq. Əgər biz özümüz çarə qılmasaq, çarəsi çətin olacaq. Əgər qanuna tabelik olmasa, diktatorluq ruhu yavaş-yavaş aşkara çıxacaq. Cəmiyyətlərdə diktatorluq belə yaranır.

Bu fərdi və ictimai hadisələrin hamısında əgər qanun meyar olsa, ədalət təmin olunar. Son hadisələrdə də biz bunu dedik... Məsələləri çözmək üçün qanuni meyar mövcuddur. Əgər qanun hakim olmasa, qanunsuzluqdan hamının başına gələcək fəlakətlər qanunun icrasının bəziləri üçün yarada biləcəyi çətinlikdən olduqca ağır olacaq. Ədalət qanuna riayət etməyi tələb edir. Əgər biz qanuna riayət etməkdən sıxıntı keçirsək, qanuna razı olmaq istəməsək, qanunsuzluqdan bizim başımıza gələnlər qanuna dözməkdən dəfələrlə ağır olacaq. Buna hamı diqqət yetirsin.

## İğtişaş törədənlərə və cinayətkarlara qarşı tədbir

İslam quruluşu xalqın təhlükəsizliyini pozanlara qarşı təbii ki, tədbir görəcək. Bu, quruluşun vəzifəsidir. İslam quruluşu icazə verməyəcək ki, kimlərsə düşmənin hiylə və təxribatına uyub xalqın həyatını korlasınlar, asayişini pozsunlar, gənclərini təhdid etsinlər. Bu ölkənin övladları əzizdir; hamı əzizdir. Quruluş buna icazə verməyəcək.

## Hadisələrin pərdə arxasındakı cinayətkarlarına qarşı tədbir

Dostlarımızdan bir neçəsinin sözlərində olan mühüm bir məsələ son hadisələrin pərdə arxasındakı cinayətkarları barəsində idi. Soruşurdular ki, bunlar nə üçün mühakimə olunmurlar? Nə üçün cəzalandırılmırlar? Nə üçün bunlara qarşı tədbir görülmür? Mən sizə deyim: belə əhəmiyyətli hadisələrdə təxminlə, gümanla, şayiə və bu kimi məsələlərlə hərəkət etmək olmaz. Biz bu inqilabı və bu əzəmətli quruluşu böyük bir xalqın mücahidliyinin, istər inqilab dövründə, istər müqəddəs müdafiə dövründə, istər ondan sonra bu günə qədər fədakarlıq göstərən gənclərin, müxtəlif sahələrdə çalışan və bəzən böyük işlər görən sizin özünüz kimi gənclərin möhtəşəm fədakarlıqlarının məhsulu bilirik. Biz bu quruluşun ümumi rəhbərlik qərarının lazım olduğu səviyyədə davamını və ümumi hərəkətini təxmin, güman və bu kimi məsələlərlə əsaslandıra bilmərik.

Siz bunu bilin ki, cinayətlərə heç bir güzəşt olunmayacaq. Lakin biz – ya mən, ya siz; fərqi yoxdur - istər tələbə olan, dilinizin açıq olduğu və rahat danışa bilən sizlərin, istərsə də bir təcrübə toplusunu və meydanda uzun iş illərini özü ilə daşıyan mənim bu cəhətdən fərqimiz yoxdur. Biz əmr edə bilmərik ki, məhkəmə belə hökm çıxarsın. Xeyr, məhkəmə gərək baxsın; əgər bir şəxsin istər siyasi sahədə, istər iqtisadi sahədə, istər digər sahələrdə cinayəti üçün dəlillər tapsa, ona uyğun hökm etsin. Sizin eşitdiyiniz bu şayiələri mən də çox eşidirəm. Bu şayiələrin bir çoxunun həqiqətə uyğun olması və insanın onun üçün bəzi sübut və faktlar tapması da mümkündür. Lakin pərakəndə faktlar kiminsə əleyhinə bir

cinayəti isbat edə bilməz; bunu yaddan çıxarmayın. Buna görə belə deyil ki, pərdə arxasında qəti bir cinayətkarın olduğunu və məhkəmənin hansısa səbəbdən onun cinayətindən keçməsini fərz edək.

Bunun kənarında başqa bir məqam var. Quruluşun geniş miqyasda bəzi məsələlərə dair gördüyü işlərdə bütün cəhətlər nəzərə alınmalıdır; məsələlərə bircəhətli baxmaq olmaz. Düşünürəm ki, siz belə baxsanız, indiyədək görülənlər və gələcəkdə görüləcək işlər hər bir insaflı zehni qane edəcək.

## Fiziki, maddi və mənəvi baxımdan zərərçəkənlərə dəstək

Görülməli işlərdən biri ölkə məmurlarının bu son hadisələrdə fiziki, maddi və yaxud mənəvi baxımdan zərərçəkənlərə kömək etməsidir. Zərərçəkənlər himayə olunmalı, zərər yetirənlər isə tapılıb cəzalandırılmalıdırlar; kim olurlar-olsunlar.

## Əcnəbilərin düşmən mövqelərinin və hərəkətlərinin gələcək münasibətlərdə nəzərə alınması

İslam Respublikası quruluşunun otuzillik müqavimət təcrübəsi hələ bunları oyatmamışdır. Bu xalqın hegemon və təcavüzkar başçılara vurduğu zərbələr bunları özlərinə gətirməmiş, ayıltmamışdır. Bunlar hələ də bizim ölkəmizə və xalqımıza tamah salırlar. Səhv edirlər və şübhəsiz ki, bu səhvlərinin cəzasını çəkəcəklər.

Biz bu dövlətlərin düşmən fikirlərini və rəftarlarını hesablayacaq, onların adına qeyd edəcəyik; bunu bilsinlər.

Bu işlərin İslam Respublikasının bu müdaxiləçilərlə gələcək münasibətlərində şübhəsiz ki, mənfi təsiri olacaq. Bunu bilsinlər, anlasınlar ki, İran xalqı hegemonluğu qəbul edən xalq deyil, qüdrətli xalqdır; İslam Respublikası quruluşu köklü və möhkəm quruluşdur.

## Hadisələr zamanı törədilən cinayət və qanun pozuntularına qarşı tədbir

Dostların sözlərində olan başqa bir mövzu bu hadisələrdə naməlum qüvvələr tərəfindən baş verən qanun pozuntuları və hətta cinayətlərdir. Siz universitet məsələsi, yaxud bu qəbildən olan digər məsələlərə işarə vurdunuz - universitet məhəlləsini əziz tələbələrin bir neçəsi təkrar etdi; bu müddətdə universitet məhəlləsinə bənzər başqa hadisələr də baş vermişdir - yaxud məsələn Kəhrizək hadisəsini dedilər. Bu hadisələr həqiqətən icraçı orqanların problemlərindən biridir. Əvvəla bunu qəti şəkildə bilin ki, bunlara qarşı tədbir görüləcək. İndi ajiotaj yaratmaq istəmirik ki, sərəncam verək, bu sərəncam mediada işıqlandırılsın, sonra bir əlavə vurulsun və sair. Mən belə təbliğatı uyğun saymıram, lakin ilk günlərdən sərəncam verilib və bəzi şəxslər bu işlərlə məşğuldurlar. İşlər isə düzgün, diqqətlə və ehtiyatla aparılmalıdır.

Bəlli gecədə Universitet məhəlləsində şübhəsiz, böyük qanun pozuntuları baş vermiş, pis işlər görülmüşdür. Biz demişik ki, bu iş üçün xüsusi iş açılsın, bununla dəqiq şəkildə məşğul olsunlar, cinayətkarları tapsınlar və tapandan sonra təşkilati əlaqələrinə əsla baxmadan cəzalandırsınlar. Bunu mən qətiyyətlə demişəm.

Mən fəaliyyətlərinə görə təhlükəsizlik polisimizə, nizam-intizam polisimizə və Bəsic təşkilatına təşəkkür

edirəm. Bunlar çox böyük və yaxşı işlər gördülər. Lakin bu başqa bir mövzudur. Əgər bu orqanlardan hər hansı birinə bağlı olan bir şəxs bir qanun pozuntusuna yol vermişsə, bir cinayət törətmişsə, o da ayrıca araşdırılmalıdır. Cinayətlərinə görə nə bunların xidmətini görməzdən gəlməliyik, nə də xidmətlərinə görə cinayətlərinin üstünü örtməliyik. Mütləq araşdırılmalıdır və araşdırılacaq. Kəhrizək məsələsi də həmçinin elan olundu və yayımlandı. Universitet məhəlləsi hadisəsi ilə də məşğul olurlar. Hətta bu hadisədə yaxınları qətlə yetirilən - bunlar azdır - yaxud maddi zərər çəkən şəxslərin hər biri üçün ayrı iş açacaqlar. Fərman vermişik, demişik və bu məsələlərlə maraqlanacağıq.

Bu hadisələrdə hər hansı bir şəxs tərəfindən hər hansı bir şəkildə zərər görən bütün şəxslər bilsinlər ki, quruluşun rəhm etmək niyyəti yoxdur. Quruluşa açıq şəkildə qarşı çıxan şəxslərlə yumşaq davranmadığımız, qanun və haqq mövqeyində durmağı düşündüyümüz kimi, quruluşa aid olan bir təşkilatda da qanun pozuntusu baş versə, pis bir iş görülsə, Allah eləməmiş, bir cinayət törədilsə, yenə də mənim fikrim budur. Biz qanun və haqq mövqeyində durmalıyıq. Allah-Taala kömək etsin və istədiyimiz işi görə bilək. Məmurlar da bu sahədə çalışırlar. İnşallah elə olacaq.

## Maksimum cəzb və minimum dəf etmək

Kiminsə müxalif fikri olsa, quruluşla işi olmasa, quruluşun onunla işi olmaz. Bəzi adamlar deyirlər ki, quruluş fərqli düşünənlərlə necə rəftar edir? Quruluşun fərqli düşünənlərlə işi yoxdur. Bu qədər fərqli düşünən

var. Siyasi cəhətdən fərqli düşünən hər halda, dini cəhətdən fərqli düşünəndən üstün deyil. Bizdə fərqli düşünən dini azlıqlar var, İslam Şurası Məclisində təmsil olunurlar, müxtəlif vəzifələrdə də çalışırlar. Odur ki, söhbət fərqli düşünmədən yox, müxalifət, qarşı çıxmaq, zərbə vurmaq, quruluşun və inqilabın qarşısında xəncər çəkməkdən gedir. Quruluşun tədbir gördüyü budur. Amma ixtilaf üslublarda olsa, zərərli deyil və faydalıdır.

Eybi yoxdur ki, ölkə məmurlarının, ölkənin vəzifəli şəxslərinin tənqidçiləri olsun, zəif cəhətlərini onlara göstərsinlər. İnsan rəqabət aparanda və tənqidçi qarşısında duranda daha yaxşı işləyir. Tənqidçilərin və hər hansı bir üsulu qəbul etməyən şəxslərin quruluşa ziyanı yoxdur, lakin quruluş çərçivəsində olmalıdır. Bunun eybi yoxdur və bu müxalifət zərərli müxalifət deyil. Quruluş da əsla belə müxalifətə qarşı çıxmır. Lakin tənqid prinsiplər çərçivəsində olmalıdır. İnqilabın prinsipləri bəllidir. İnqilabın prinsipləri şəxsi üslublar deyil ki, hərə bir tərəfdən iddia qaldırsın, sonra o prinsiplərə baxdıqda inqilaba yad olduğunu görək. İnqilabın prinsipləri İslamdır, konstitusiyadır, imamın tövsiyələridir, imamın vəsiyyətnaməsidir, yazılması konstitusiyada müəyyən olunmuş ümumi siyasətlərdir. Bu çərçivədə fikir ayrılığı, üslub fərqi eyib deyil, yaxşıdır; zərərli deyil, faydalıdır. Belə çəkişmələrdə quruluş heç kimlə toqquşmur. İnsanlar prinsiplər çərçivəsində rəftar etdikləri, kobudluq göstərmədikləri, cəmiyyətin təhlükəsizliyini və sabitliyini pozmadıqları, belə yanlış işlər görmədikləri, yalan və şayiə yaymadıqları təqdirdə quruluşun heç kimlə bir problemi yoxdur. Müxaliflər var, onların öz fikirləri var və fikirlərini bəyan edirlər. Quruluşun bunlarla işi yoxdur. Quruluş burada maksimum cəzb edib minimum dəf etməyi

düşünür. Quruluşun üsulu budur; buna hamı diqqət yetirsin. Rəsmi nəzərlərlə müxalif fikri olan şəxslər özlərini bu çərçivədə müqayisə edə bilərlər. Lakin kimsə quruluşun əsaslarına qarşı çıxsa, xalqın təhlükəsizliyi ilə müxalif olsa, quruluş ona qarşı tədbir görməyə məcburdur.

Mən dəf etməyi əsla düzgün saymıram. Mən cümə namazında da dedim ki, fikrim maksimum cəzb etmək və minimum dəf etməkdir. Amma bəziləri sanki özləri quruluşdan uzaqlaşmaqda israrlıdırlar. Seçki mübarizələrindən ibarət olan ailədaxili, quruluşdaxili bir ixtilafı bir qrup adam quruluşla mübarizəyə çevirdi. Əlbəttə, bunlar az, kiçik və İran xalqının əzəməti qarşısında sıfırdırlar. Lakin bunların lehinə şüar verirlər, bunlar da sevinirlər. Bu, ibrət olmalıdır.

# Mesajlar, təcrübələr, dərslər

## Xalqı səhnəyə çıxarmaqda İslam Respublikasının qüdrəti

Bu seçkilərin ilk mesajı bu idi ki, İslam Respublikası otuz ildən sonra xalqı normal dünya rekordlarını keçəcək həddə səhnəyə gətirmək və mili səfərbərlik yaratmaq gücünə malikdir. Bəzi qüvvələr bu illər ərzində İslam quruluşunun getdikcə köhnəlməsini, xalqın gözündən düşməsini və xalqı səfərbər etmək gücünü itirməsini gözləyirdilər. Bu seçkilər isə göstərdi ki, İslam quruluşunun xalqı səfərbər etmək gücü getdikcə artmış və xalqın etimadını qazanmaqda daha uğurlu olmuşdur. Bu çox mühüm məsələdir. Bəzi kənar hadisələr bu mühüm məsələləri nəzərdən qaçırır. Bu seçkilərdə aşkara çıxan həqiqət budur ki, İslam inqilabı və İslam quruluşu elə canlı, cazibəli və inkişafdadır ki, otuz il ötəndən sonra

xalqı bu həddə səhnəyə çıxarmaq gücünə malikdir. Səksən beş faizli bir göstərici bütün dünya miqyasında misilsiz, yaxud ən azı misli az olan bir rekorddur.

Bir quruluş üçün ən böyük nailiyyət budur ki, xalq onun arxasında dursun. Düşmənlər bu xalq hərəkətini pozmaq istədilər; dedilər ki, yürüş hökumətin yürüşü idi. Ağılsızlar anlamırlar ki, bu sözlə hökuməti tərifləyirlər. Bu necə hökumətdir ki, iki gün ərzində bütün ölkədə belə möhtəşəm milli səfərbərlik yarada bilir?! Aşurada, yəni bazar günü o çirkin işləri törətdilər, çərşənbə günü isə bu möhtəşəm yürüş keçrildi. Bu gün başqa hansı ölkənin və hansı hökumətin belə gücü var?! Dünyanın ən güclü və ən sərvətli hökumətləri - casus və terrorçu yetişdirmək və digər pozucu fəaliyyətlər üçün çoxlu pullar xərcləyən hökumətlər bütün səylərini toplasalar, iki gün ərzində şəhərlərinin, yaxud ölkənin küçələrinə yüz min adam çıxara bilməzlər. Ölkə boyu on milyonlarla insan küçələrə çıxdı. Əgər hökumətin tapşırığı ilə gəlmişlərsə, bu çox iqtidarlı hökumətdir. Belə səfərbərlik imkanına malik olan hökumət çox güclü hökumətdir. Lakin sözləri doğru deyil. Həqiqət budur ki, bizim ölkəmizdə hökumət və xalq yoxdur, hamısı birdir. Bu bəndənizdən tutmuş digərlərinə qədər dövlət məmurlarının hər biri bu xalqın əzəmətli okeanında damlalardır.

## Quruluşun respublika olmasının isbatı

Bu izdihamlı və unudulmaz seçkilər göstərdi ki, İran xalqı ölkənin idarəsi üçün məsuliyyət hiss edir, öz iradəsi, ixtiyarı ilə meydana qoşulur və ölkənin məmurlarını seçir. Bu, quruluş və inqilab üçün çox mühüm bir məsələdir.

Bizim böyük xalqımız seçkilərdə 85 faiz iştirakı ilə əslində inqilabla yenidən beyət etdi, sonra da 25 milyona yaxın səslə prezidenti seçdi. Bu da bizim hökumət və prezidentlərimiz üçün yeni bir rekord idi. Bütün bunların mesajı var; həm 85 faizlik və 40 milyonluq iştirakın mesajları var, həm də 25 milyona yaxın bu seçimin. Bunların mesajı var və bu mesajları bilmək lazımdır. Əgər bir hökumət və məmurlar bu mesajları düzgün dərk etsələr, cəmiyyətin siyasi elitası və görkəmli şəxsiyyətləri bu mesajlara diqqətlə baxsalar, çoxlu problemlər həll olunar.

Bu seçkilərdə bizim xalqımız və daha doğrusu inqilabımız özünün respublika olmasını güclü şəkildə isbat etdi. Bu 85 faizlik iştirak daim inqilabın və İslamın əleyhinə danışan, quruluşun respublikaçılığının təməllərində səhv axtaran düşmənlərin başına respublikaçılıq zərbəsi idi. O izdihamlı iştirak bunu göstərirdi. Sonra da gördünüz ki, möhtərəm namizədlərin sözlərində əksərən imamın xəttini davam etdirmək, dəyərlərə təmayül və sevgi görünürdü. Bəzən bu ümumi xəttə uyğun olmayan sözlər də deyilirdi, lakin hamı sözlərində imamın yoluna, xəttinə, inqilaba və onun təməllərinə vurğun olduğunu göstərmək istəyirdi. Bu çox mühüm məsələdir. Bu onu göstərir ki, hamı İran xalqının bunlara meylli olduğunu hiss edir. Bu, İran xalqının ümumi hərəkət istiqamətini göstərir; yəni islamiyyət və ilahi əmr qarşısında itaət istiqaməti. Bizim böyük imamımız bunun timsalı idi. Buna əsasən, bu seçkilərdə quruluşun həm respublikaçılığı, həm də islamiyyəti möhkəmləndi, təsdiqləndi. Bunlar mühüm mesajlardır. Bunları dərk etmək lazımdır.

## Xalqla İslam quruluşu arasında qarşılıqlı etimad

Bu seçkilərin və xalqın bu möhtəşəm iştirakının başqa bir mesajı İslam quruluşu ilə xalq arasında qarşılıqlı etimadın olmasıdır. Bu seçkilərdə müxtəlif təmayüllü insanların dialoqu və rəqabətə qoşulması, eləcə də müxtəlif fikirləri səhnəyə gətirmək üçün imkan yarandı. Bu, quruluşun özünəinamının əlamətidir və onun öz xalqına etimadını göstərir. Qarşılıqlı olaraq xalq da quruluşa etimad etdi, gəlib öz səsini seçki qutularına saldı. Əgər quruluşa etimad olmasa, xalqın bu diqqəti olmaz. Xalqın etimadsızlığından dəm vuran bu şəxslər qərəzli olmasalar, qafildirlər. Bundan güclü hansı etimad ola bilər?! Xalq seçkilərdə iştirak edib quruluşuna və hökumətinə etimad göstərir, öz səsini onlara tapşırır və səsvermənin nəticələrinin elan olunmasını gözləyir. Bu, xalqın yüksək etimadıdır. Allahın yardımı və lütfü ilə bu etimad hələ də var. Biz ölkə məmurlarından və müxtəlif sahələrin məsul şəxslərindən gözləyirik ki, öz rəftarları ilə bu etimadı artırsınlar. Bu, İslam quruluşunun əsas sərvətidir.

Bir qrup düşmən və bir qrup qafil insan tərəfindən yaradılmış kənar məsələlər qurtaracaq, əsas məsələ ilə qalacaq. Əsas məsələ odur ki, möhtəşəm bir seçkidə İran xalqının təxminən qırx milyonu iştirak etdi. Əsas məsələ budur. İnqilabdan otuz il sonra qırx milyon insan özünün quruluşa etimadını və gələcəyə ümidini bu formada göstərdi. Bu qalacaq. Əsas məsələ budur ki, xalqın iyirmi dörd milyondan artıq səsi ilə bir prezident seçilmişdir. Əsas məsələlər bunlardır. Kənar məsələlər, toz-dumanlar, qatqılar, düşməni sevindirən iş və sözlər bitəcək, amma bu

həqiqət qalacaq: "Köpük heç bir şey olmadığı üçün uçub gedər, insanlara fayda verən bir şey isə yer üzündə qalar".

Seçkilərdən sonra yaradılan və dəstəklənən bütün bu çaxnaşmalar inqilabın ictimai dayağına zərbə vurmaq və onu inqilabdan almaq üçün idi. Mən dedim ki, xalqın bu quruluşa inamının dəlili qırx milyon nəfərin seçkilərdə iştirakıdır. Əcnəbi radiolar və təəssüf ki, daxildən onların səsinə səs verənlər daim təkrar və təkid edirdilər ki, xalqın quruluşa inamı yoxdur. Bu, həmin sözün cavabıdır. Biz orada dedik ki, xalqın 85 faizinin seçkilərə qatılması, qırx milyon insanın seçki məntəqələrinə gedib hər hansı bir namizədə səs verməsi xalqın quruluşa inamını göstərir. Həqiqətən də belədir. Bunlar bu sözün yalan olduğunu göstərmək üçün təkrar-təkrar təbliğat apardılar ki, xalqın inamı sarsılıb, nə edək? Bəzi adamlar da qayğıkeş görkəmində dedilər ki, inamın qayıtması üçün nə edək? Xalq quruluşa inanır, quruluş da xalqa. İnşallah iki-üç ildən sonrakı seçkilərdə də bu xalq müxaliflərin, düşmənlərin, daxildəki qafil və bixəbərlərin həmin aktyorluğuna rəğmən, seçkilərdə yüksək səviyyədə iştirak edəcək.

## Xalqın ümidi və həvəsi

Bu seçkilərdə başqa bir mesaj xalqda həvəs və ümidin olmasıdır. Əlbəttə, bizim ölkəmizdə və cəmiyyətimizdə bu təbii bir məsələdir. Çünki bizim ölkəmizin əksəriyyəti gənclərdən ibarətdir və gənclik dövrü həvəs və ümidin əsas dövrüdür. Ümidlə işə qoşuldular. Əgər gələcəyə ümid olmasa, ümidsiz və qəmli şəxs seçkilərə getməz. Xalqın və gənclərin iştirakı onların ümidli olmasını göstərir.

## Xalqın sayıqlığı

Ötən ildəki fitnə düşmənlərin təxribatının bir nümunəsi idi. Fitnə idi; yəni bəzi şəxslər haqlı şüarları tam nahaq məqsədlə və xalqı aldatmaq üçün irəli sürürdülər. Lakin uğursuz oldu. Fitnə yaratmaqda məqsəd xalqı azdırmaqdır. Siz baxın, fitnə ilə mübarizədə bizim xalqımızın özü ayağa qalxdı, 9 deydə (30 dekabrda) ölkənin hər bir yerində fitnəkarlara möhkəm zərbə vuruldu. Bu işi xalqın özü etdi. Natiqlərin, böyüklərin və hamının dəfələrlə dediyi kimi, bu hərəkət bir özfəaliyyət hərəkəti idi. Bu çox mənalıdır. Bu, xalqın ayıq-sayıq olduğunu göstərir. Bizim düşmənlərimiz bu mesajı almalıdırlar. Quruluşla xalqı bir-birindən ayıra biləcəklərini düşünən şəxslər baxıb görsünlər ki, bu quruluş xalqın özünün quruluşudur, xalqa məxsusdur. Bizim quruluşun üstün cəhəti onun xalqa məxsusluğudur. Bütün varlığı ilə bu ölkədə İslam Respublikası quruluşunu, İslamı və bu yüksəlmiş bayrağı saxlayan birinci növbədə xalqın özüdür. Bizim düşmənlərimiz bunu bilsinlər. Hegemon dövlətlərin və birinci növbədə Amerikanın başçıları bizim xalqımız əleyhinə danışır, təxribat aparır, bəzən şüar verir, bəzən aldadıcı sözlər deyir, bəzən açıq şəkildə düşmənlik edir, bəzən də pərdə arxasında gizlənirlər. Bunların hamısı İran məsələləri və İran xalqı barədə düzgün təhlillərinin olmamasına görədir. Bizim xalqımız ayıq və sayıq xalqdır.

## Hətta ən yaxşı şəraitlərdə də düşmənin zərbə vurmaq imkanı

Bu seçkilərin təcrübələri də oldu. Bizim xalqımız və məmurlarımız üçün bir təcrübə bu idi ki, inqilabın və müsəlman İranın düşmənlərinin həmişə, hətta ən yaxşı

şəraitlərdə də bizə zərər yetirməsinin mümkünlüyünə inanaq. Mən təkid edirəm ki, hamımız bu təcrübəni ciddi sayaq; həm məmurlar ciddi saysınlar, həm də xalq. Düşmənin pusqu qurmasını həmişə diqqətdə saxlamalıyıq. İran xalqının ümumi hərəkətinə zərbə vurulmasının mümkünlüyünü unutmaq təhlükəli bir şeydir. Sayıq olun. Bu, Möminlər əmirinin tövsiyəsidir: "İnsan yatıbsa, (bilsin ki,) düşməni yatmamışdır". Siyasi həyatda yuxuya qalmayaq; səngərlərdə bizi yuxu aparmasın. Əgər sən yatsan, bil ki, düşmənin oyaq olması mümkündür. Bu, təhlil deyil, informasiyadır. İslam Respublikası quruluşunun düşmənləri İslam quruluşunun xalq üçün yaratdığı azad şəraitdə xalqa başağrısı və nigaranlıq yaratmağa səy göstərdilər, çalışdılar, pul xərclədilər, çoxlu media qurumlarını işə saldılar, çoxlu qüvvələrini səfərbər etdilər ki, İran xalqı üçün böyük bir milli bayram hesab olunan bu vəziyyəti onun əleyhinə çevirsinlər; buna çalışdılar. Bu təcrübə bizim hamımız və bütün xalq üçün xəbərdaredici təcrübə olmalıdır. Əgər biz siyasi və ictimai həyatda bir-birimizə bədbin olsaq, bir-birimizə düşmən gözü ilə baxsaq, bizim həqiqi düşmənlərimiz üçün bu imkan yaranacaq. Əgər düşünməsək, agahlığımız olmasa, düşmənlərin inqilab üçün pusqu qurduğunu unutsaq, zərər görəcəyik. Bu, bizim üçün təcrübə oldu.

İnqilabın əvvəlindən bizdə heç zaman qırx milyonluq, səksən beş faizlik seçki keçirilməmişdi. Bu seçkilərdə ilk dəfə belə böyük fürsət qarşıya çıxdı. Amma bu böyük fürsətdə, bu böyük sevincdə bəzi əllər İran xalqına zərbə vurmağa qalxdılar. Ayıq olmaq lazımdır. Bu ayıqlıq yalnız dildə deyil, xalq, müxtəlif siyasi qruplar, ölkəni və İslam quruluşunu sevənlər, hamı və hamı sözün həqiqi mənasında ayıq olmalı və aldanmamalıdırlar.

Bir müddət öncədən bəzi əllər işləyir və seçki dövründən İran xalqı əleyhinə istifadə etmək üçün hazırlıq görürdülər. Xoşbəxtlikdən İran xalqı sayıq oldu və sayıqdır. Qarışıqlıq yaratdılar, ağızları bir qədər acılatdılar, amma istədikləri işi görə bilmədilər. Bu, siz xalqın sayıqlığına görə belə oldu. Bu, bizim üçün təcrübə oldu ki, düşmənimizin pusquda durduğunu bilək.

## Böyük qələbələrdən sonra böyük təhlükələr

Adətən böyük qələbələrdən sonra böyük təhlükələr yaranır. Baxın, Xürrəmşəhrin azad edilməsi çox böyük bir qələbə idi. Xatırlayanlar bilirlər ki, 1982-ci ildə baş verən bu qələbə çox möhtəşəm bir iş idi; həm siyasi cəhətdən mühüm idi, həm hərbi cəhətdən çox mürəkkəb və mühüm idi, həm də ictimai cəhətdən, ümumi baxış və ictimai rəy cəhətindən çox əhəmiyyətli və təsirli idi. Hər cəhətdən böyük iş idi. Müxtəlif yerlərdən çoxlu insanlar gəldilər. Mən o zaman prezident idim. Beş, altı və bəlkə də yeddi ölkənin prezidentləri gəlib burada bizimlə görüşdülər və açıq şəkildə dedilər ki, bu böyük qələbədən sonra sizin vəziyyətiniz fərqlənmişdir. Yəni bu hadisənin daxili və xarici cəhətləri bu qədər əzəmətli idi. İmam həqiqətən bir müəllim, əxlaq müəllimi idi. Bu qədər əzəmətli və bu qədər böyük bir hadisə baş verəndə, o saat küçədə xalqın ruhiyyəsində təsiri görünən kimi imam dərdi hiss edib dərhal dərmanını verdi: "Xürrəmşəhri Allah azad etdi".

Bunun mənası o idi ki, bu qədər çətinlik görmüş, bu qədər əziyyət çəkmiş komandirlər - biz bu Beytülmüqəddəs əməliyyatının qələbəsində çoxlu yaxşı və böyük şəhidlər verdik - bütün bu zəhmətlərə və bu böyük

işə görə qürurlanmasınlar. Hakimiyyətin başında oturan siyasilər bu sahədə yaranmış böyük qələbəyə görə məğrur olmasınlar: "(Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı".

Mən və siz bir kimsə deyilik, işi görən Allahın qüdrət əlidir. Mən və siz yalnız vasitələrik; əgər ağlımızı və ixtiyarımızı işlətsək, bu məqsəddən ötrü bizdən istifadə olunacaq, fəxri və şərəfi də bizə qalacaq. Lakin əgər biz də olmasaq, "Allah elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər".

Allahın işi yerdə qalmayacaq. Bu təbii bir hərəkət, təbiətin və tarixin qanunudur: "Allahın əvvəldən qoyduğu qayda-qanun belədir". Quranın müxtəlif yerlərində müxtəlif ibarələrlə belə deyilmişdir: "Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən!" Bu, ilahi qanundur. "Əgər (Məkkə əhlindən sonra) o kafirlər sizinlə döyüşə girişsəydilər, mütləq arxa çevirib qaçacaq, özlərinə nə dost, nə də havadar tapacaqdılar. (Ey Peyğəmbər!) Allahın əvvəldən qoyduğu qayda-qanun belədir". Bu bir yeridir. "Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən!"; Yəni əgər siz meydana atılsanız, düşməninizə qələbə çalacaqsınız. Bu, Allahın qanunudur. Bu qələbə bir gündə, bir ildə baş verməyə bilər, amma sonu budur. Bu qələbə mütləq baş verəcək. Haqq cəbhəsində məğlubiyyətin mənası yoxdur. Yalnız haqq tərəfdarları meydanda olmadıqda və lazımi işi görmədikdə belə ola bilər. Odur ki, iş Allahın işidir: "(Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı". Burada da belədir. Siz məmurlar, möhtərəm prezident və bu hərəkəti sevən bütün şəxslər günbəgün ilahi lütfün və xalqın qəlbini bu səmtə yönəldən qüdrət əlinin qədrini daha artıq bilin.

Mənim fikrimcə, 2009-cu il fitnəsi də belə idi; bizim üçün bir zəng, bir həyəcan siqnalı idi. Bir seçkidə qırx milyon insan iştirak etdi. Bizim hamımız gecəyə qədər baxıb sevinirdik ki, xalq seçki məntəqələrinə gedir və səs verir. Düzdür, hələ say deyilməmişdi, amma hamı həzz alırdı. Birdən bir tərəfdən bir fitnə başladı. Bu bizi oyadır və deyir ki, yatmayın, qafil olmayın, sizin qarşısınızda təhlükələr var və o təhlükələr bunlardır. Mənim fikrimcə, bütün hadisələrə belə baxmaq lazımdır.

## İslam Respublikasına qarşı yumşaq müharibədə düşmənin prioritetinin dəyişməsi

Bu gün hamı bilir ki, hegemonluğun İslam Respublikası quruluşu ilə mübarizəsi inqilabın ilk onilliyində olduğu kimi deyil. Həmin mübarizədə güclərini sınayıb məğlub oldular. Ağır mübarizə idi; müharibə başlatdılar, çevriliş etməyə çalışdılar. İnqilabın əvvəlində çevrilişə cəhd etdilər, amma alınmadı; milli qarşıdurmalar yaratdılar, amma alınmadı, məğlub oldular. Səkkiz il sürən bir müharibəyə başladılar, amma məğlub oldular. Daha bu üsullara əl atmayacaqlar; yəni belə ehtimal zəifdir. Təbii ki, həmişə bütün ehtimallara hazır olmaq lazımdır, lakin bu, İslam quruluşuna qarşı mübarizədə hegemonluq üçün prioritet deyil. Prioritet bu gün yumşaq müharibə deyilən məsələdir; yəni mədəni üsullarla, yalanla və şayiə yaymaqla müharibə etmək; on il, on beş il, otuz il öncə mövcud olmayan və bu gün geniş yayılmış mütərəqqi üsullarla müharibə etmək. Yumşaq müharibə xalqın qəlbində və beynində şübhə yaratmaqdır.

İndi çıxışlarda, televiziyada, informasiya vasitələrində, məhkəmədə “yumşaq müharibə” sözü hamının dilinə düşüb. Bu doğru sözdür. Bu bir həqiqətdir. Yəni indi müharibə gedir. Əlbəttə, bu sözü mən bu gün demirəm. Müharibədən sonra - 88-ci ildən sonra dəfələrlə bunu demişəm. Səbəb budur ki, mən səhnəni görürəm. Kimsə görmürsə, mən nə edim?! Mən səhnəni görürəm, təchizatı görürəm, sıraları görürəm, nifrət və qəzəblə açılan ağızları görürəm, inqilab əleyhinə, imam əleyhinə, bütün bu amalların və bu hərəkətə könül verən bütün şəxslərin əleyhinə qeyzlə sıxılmış dişləri görürəm. İnsan bunları görür, nə etsin?! Bu bitməyib və bitmədiyinə görə hamımızın üzərinə vəzifə düşür.

Bu gün bizə qarşı hərbi müharibə çox da ehtimal olunmur. Demirik ki, əsla mümkün deyil, amma çox ehtimal olunmur. İndiki müharibənin təhlükəsi isə hərbi müharibədən çox olmasa da, az deyil; əgər daha çox ehtiyat tələb etmirsə, az ehtiyat tələb etmir. Hərbi müharibədə düşmən bizim sərhədlərimizdəki səngərlərə hücum edir, sərhədlərimizi yarıb keçməyə çalışır. Bu gün yumşaq müharibə adlanan psixoloji müharibədə isə düşmən mənəvi səngərləri dağıtmağa çalışır; imanlara, etiqadlara, iradələrə, bir quruluşun və bir ölkənin əsas təməllərinə hücum edir. Düşmən bunları dağıtmağa və öz təbliğatında müsbət cəhətləri mənfi cəhətlərə çevirməyə çalışır; bir quruluşun fürsətlərini təhdidə çevirmək istəyir. Onlar bu işi görürlər. Bu işdə təcrübələri var, çoxlu zəhmət çəkirlər, əllərində çoxlu imkanlar da var. Gərək düşmənin və düşmənliyin bütün cəhətlərini bilək və ona qalib gələk. Əlbəttə, bizdə Allahın yardımı var, şübhəsiz ki, qeybi köməklər var. İnsan bunu müşahidə edir, lakin

sayıq və agah şəkildə meydanda olmayınca, lazımi tədbirləri almayınca ilahi yardım bizə şamil olmayacaq.

## Quruluşun və İslam inqilabının əzəmətinin düşmənə aşkarlanması

Mənim fikrimcə, bizim düşmənlərimiz də bu seçkilərdən bir təcrübə toplamalıdırlar; əgər toplamayıblarsa, toplasınlar. O təcrübə budur: Düşmən, qarşısında kimin durduğunu bilsin, İslam quruluşu və İslam inqilabı haqda səhvə düşməsin. Elə bilməsinlər ki, İslam inqilabını və quruluşunu belə səfeh işlərlə diz çökürmək olar. İslam quruluşu canlıdır. Elə bilməsinlər ki, xalqın 1979-cu il inqilabındakı möhtəşəm fəallığına dair yanlış bir təqlidlə, o inqilabın bir karikaturu ilə İslam inqilabının və quruluşunun əzəmətinə zərbə vura bilərlər. Bu təcrübə düşmənin qarşısına çıxmış olmalıdır; səhv etməsinlər. İslam quruluşu bu işlərlə məğlub olmayacaq.

Bu inqilabın və quruluşun əzəməti və İslam Respublikası quruluşunun gücü son bir-iki ayda baş verən hadisələrdə daha çox İslam Respublikasının düşmənlərinə aşkar oldu. Bu xalq imanlı, sayıq və istedadlı xalqdır. Zirar məscidi ilə bu xalqı məğlub etmək olmaz. Tarixdə bizim özümüzün buna dair nümunələrimiz var: "(Quba məscidinə və müsəlmanlara) zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən göz-qulaq olmaq üçün məscid düzəldənlər..." Bizim ürəkdən, candan və bütün vücudu ilə Qurana bürünmüş böyük imamımızı - inqilabın əziz və əzəmətli rəhbərini yamsılamaqla bu xalqı aldatmaq olmaz. Bu

xalqın qəlbi imanla işıqlanmışdır. Bu xalq agahdır. Bizim gənclərimiz agahdırlar. Bu, düşmən üçün bir təcrübədir.

## Kiçik səhvlərin böyük səhvlərə səbəb olması və insanın fəsada çəkilməsi

Siyasi fəalların, məmurların, iqtidarda olanların, müxtəlif vəzifə sahiblərinin və nüfuzlu şəxslərin ciddi şəkildə ehtiyatlanmalı olduğu başqa bir məsələ şəxsi yayınma və fəsada uğrama məsələsidir. Hamımız ehtiyatlı olmalıyıq. İnsanlar fəsad və yayınma təhlükəsi qarşısındadırlar. Bəzən kiçik səhvlər insanın böyük və daha böyük səhvlərə və bəzən dərin uçurumlara yuvarlanması ilə nəticələnir. Çox ehtiyatlı olmaq lazımdır. Quran xəbərdarlıq etmişdir. Quranın müxtəlif yerlərində bu xəbərdarlıq mövcuddur. Bir yerdə buyurur: "Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu". Bəzi işlərin nəticəsi elədir ki, insan ilahi ayələri təkzib etməkdən ibarət olan ən pis yerə çatır. Bir yerdə buyurur: "(Allaha) verdikləri vədə xilaf çıxdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı". Allaha verdikləri sözə əməl etmədilər və bu, qəlblərində nifaqın yaranmasına bais oldu. Yəni insan bir günah edir bu günah onu nifaqa çəkir. Nifaq daxili küfrdür. Quranda kafir və münafiqlərin adı yan-yana çəkilir. Başqa bir ayədə buyurur: "(Ühüd müharibəsində) iki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri şeytan, məhz etdikləri bəzi əməllərlə yoldan çıxmağa məcbur etdi". Bir qrupun düşmən qarşısında məğlub olub tab gətirmədiklərini və dayana bilmədiklərini görürsünüzsə, bu, onların qabaqca gördüyü işlərə görədir;

öz daxillərini günah və xəta ilə qaraltmışlar. Səhvlər insanı fəsada çəkir, bu fəsad əməldə və bəzən etiqadda yayınma ilə nəticələnir. Bu da tədricən baş verir, birdən-birə olmur ki, biz bir nəfərin gecə mömin yatdığını və səhər yuxudan münafiq kimi oyandığını düşünək. Xeyr, tədricən və yavaş-yavaş baş verir. Bunun çarəsi özündən ehtiyatlı olmaqdır və bu, təqva adlanır. Deməli, əlacı təqva və muğayat olmaqdır. Yaxınlar muğayat olsunlar, xanımlar öz ərlərindən, ərlər öz həyat yoldaşlarından, yaxın dostlar bir-birindən: "Haqqa və dözümə tövsiyə edərlər". Bir-birimizdən muğayat olaq. Xalq məmurlara öyüd-nəsihət versin; onlara yazsınlar, desinlər, xəbər göndərsinlər ki, səhvə düşməsinlər. Məsul şəxslərin səhvlərinin quruluşa, ölkəyə və xalqa təhlükələri də çox olur. İnsan hərdən bəzi söz və hərəkətlərdə bunu hiss edir, belə bir yayınmanın əlamətləri müşahidə olunur. Allaha sığınmaq və Allahdan kömək istəmək lazımdır.

## Daxildə təxribatın mərkəzinə çevrilmiş şəxsin bunu bilməməsinin mümkünlüyü

Təxribat xəyal deyil, bir həqiqətdir; hər tərəfdə təxribat aparılır, ölkə daxilində o təxribat hərəkətlərinin mərkəzi olan şəxsin özünün ümumiyyətlə bilməməsi də mümkündür. Bunu dərk etmək də zəka istəyir. Bəzilərində bu zəka yoxdur. Biz insanları sınadıq; kimin sazına rəqs etdiklərini anlamırlar. Lakin bu, reallığı dəyişdirmir; onlar istər bilsinlər, istər bilməsinlər, istər anlasınlar, istər anlamasınlar, hər halda bu təxribatlar var.

Mənim fikrimcə və mənim təhlilimə görə, bu məsələ seçkilərdən sonra, yaxud seçkilər ərəfəsində başlamayıb,

öncədən başlamışdır. Bu, qabaqcadan hazırlanmış və planlaşdırılmışdır. Mən bu işin içində olan şəxsləri əcnəbilərə, ingilislərə, yaxud amerikalılara çalışmaqda ittiham etmirəm. Mən bunu iddia etmirəm, çünki mənə sübut olunmayanı deyə bilmərəm. Lakin deyə biləcəyim budur ki, bu cərəyan onun öncülləri bilsələr də, bilməsələr də, planlaşdırılmış bir cərəyandır və təsadüfi deyil. Bütün əlamətlər göstərir ki, bu hadisələr planlaşdırılmış və düşünülmüş idi. Əlbəttə, planlaşdıranlar onun baş tutacağına əmin deyildilər.

## Quruluşun düşmənlərin təxribatlarına qarşı zirehli quruma çevrilməsi

Mən görürəm ki, son siyasi hadisələrdə və bu otuz ilin bütün hadisələrində ölkə - yəni İslam Respublikası quruluşu tədricən toxunulmaz, və zirehli bir quruma çevrilmişdir. Zarafat deyil; siz dünyanın bu müxtəlif kəşfiyyat və təbliğat şəbəkələrinin casus, təbliğat və kəşfiyyat gücünə əhəmiyyətsiz yanaşmayın. Bunların hamısını hiss edirlər. Bunu hamı hiss edir. Bəlkə də müxtəlif sahələrdə dərin məlumatı olmayanlar az görürlər. Siz Hollivuda əhəmiyyətsiz baxmayın. Xanımların birinin dediyi kimi, Qərbdə incəsənətin təsir gücünə və Qərb dünyasında təbliğat hərflərinin çox dəqiq düzülüşünə əhəmiyyətsiz yanaşmayın. Bütün bu əzəmətli qüvvələr, üstəgəl tükənməz sərvət, üstəgəl əzəmətli siyasi və təbliğat maşınları İslam Respublikasının canına düşdülər. Siz bu gün dünyada bu şəkildə hücumların hədəfinə çevrilən başqa bir ölkə tapa bilməzsiniz. İslam Respublikası isə müqavimət göstərməkdədir. Bu zarafatdır?! Bu yeddicanlı,

möhkəm və toxunulmaz varlıq müqavimət göstərməkdədir. Bu kiçik məsələ deyil.

Eyni zamanda bu ölkə və bu quruluş nəinki zəifləmir, siz gənclərdən ibarət olan və inkişaf etmiş elmi cəmiyyəti on il öncədən aydın şəkildə irəlidə gedir. Bunun mənası nədir? Bunun mənası haqlılıqdır, prinsipallıqdır, köklü olmaqdır: "Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz gözəl bir ağac kimidir". Bizim etiqadımız budur. Biz etiqadla, ürəklə işləyirik. Biz çatışmazlıqları inkar etmirik. Mən çatışmazlıqları tənqidçilərin çoxundan artıq bilirəm. Lakin çatışmazlıqların aradan qaldırılmasının yolu güman edilən bu yollar deyil ki, gəlib elan verək. Xeyr, çox məsələlər elanla düzəlmir, işlə düzəlir.

Amerikalılar ilk gündən İslam Respublikası əleyhinə təxribat aparıblar. Bu təxribatların təsirsiz olduğunu demək artıqdır; aydındır ki, təsirsiz olmuşdur. Əgər təsirsiz olmasaydı, indi İslam Respublikasından əsər-əlamət qalmazdı. Görürsünüz ki, bu gün İslam Respublikası ilk gündən on dəfələrlə daha güclüdür. Deməli, bu təxribatlar təsirsiz olmuşdur. Bu gün də daim yeni planlar hazırlayırlar, yenə təxribatlar aparırlar və ibrət almırlar. Mən təəccüb edirəm; bunlar keçmiş haqda fikirləşmirlər ki, bu qədər təxribat apardıq, İslam Respublikası əleyhinə bu qədər pullar xərclədik, bu qədər onu-bunu gördük, daxildə muzdur yetişdirdik, xaricdə onu-bunu İslam Respublikası əleyhinə səfərbər etdik, amma təsir etmədi?! İndi yenə oturub İslam Respublikasını məğlub etməkdən ötrü 45 milyon dollar büdcə ayırırlar; internet vasitəsi ilə İran inqilabını məhv etmək və İslam Respublikasını devirmək üçün büdcə ayırırlar.

Görün bu düşmən nə qədər acizdir. Siz indiyədək nə qədər 45 milyonlar xərclədiniz, İslam Repsublikasının məğlub etmək üçün diplomatik işlər gördünüz, iqtisadi embarqolar tətbiq etdiniz, müxtəlif təxribatlar apardınız, casus göndərdiniz, casus yetişdirdiniz; bunların nə faydası oldu ki, indi bu yolla işləmək və İran xalqını inqilabdan ayırmaq istəyirsiniz? Düşmən bunu anlamır. Bu, Allahın qanunudur. Bu, Allah-Taalanın qafil düşmənin gözünü və qulağını bağlamasıdır ki, həqiqətləri anlamasın. Bu, düşməni qafil etməkdir: "Onlar mallarını sərf edəcək, lakin sonra peşman olacaqlar". Pul xərcləyirlər və sonra onlar üçün həsrət olur; çünki faydasızdır. Mən bilmirəm bunlar Tehranda bir bəhanə ilə iğtişaş yaratmaqdan ötrü nə qədər layihələr hazırladılar və nə işlər gördülər. Allah bilir ki, bunlar nə zamandan işlər planlaşdırırlar. Nəticəsi nə oldu? Məgər xalq daha da oyanmadı?! Əgər kimsə meydana atılıb İslam Respublikası quruluşunu müdafiə etməyin lazım olmadığının düşünürdüsə, bu hadisələrdən sonra həmişə İslam Respublikasını müdafiə etməyə hazır olmağı düşünür.

Bəzən düşmənin çıxardığı bu oyunlar İslam Respublikasından bac almaqdan ötrü olur. İnqilabın əvvəlində də belə idi; bu gün-sabahların bəzisini ondan ötrü edirdilər ki, İslam Respublikası quruluşunu onları hakimiyyətə şərik etməyə vadar etsinlər. Halbuki buna haqları çatmır, xalq bunu istəmir və bunun ictimai dayağı da yoxdur. Bəzən belədir; bizim beynəlxalq düşmənlərimiz bu qalmaqalları yaradırlar ki, İslam Respublikasını bac verməyə məcbur etsinlər. Çoxlu dövlətlər belədir; bir təhlükə hiss edən kimi gedib böyük ərbabları qarşısında dayanır və bac ödəyirlər; pul verirlər, siyasi imtiyaz verirlər. İmam isə bac vermədi. Bunu hamı

bilsin ki, biz də İran xalqı tərəfindən və öz tərəfimizdən heç kəsə bac verməyəcəyik.

## Zəif cəhətlərimizi görmək

Seçkilər ərəfəsində, seçkilərdən sonra və öncə baş verən hadisələr tipindən olan imtahanlarda gördük ki, bu sahələrdə zəifliyimiz və problemlərimiz var. Bu hadisələr zəif cəhətlərimizi bilməkdən ötrü bizim üçün böyük nemətdir. Bunlar silahlı qüvvələrin təlimlərinə bənzəyir. Təlim ondan ötrüdür ki, bir hərbi bölmə, hərbi təşkilat zəif cəhətlərini görsün. Bir hədəfi göstərib ona sarı hərəkət etmək əmri verilir - bütün təlimlərdə belədir - sonra peşəkar hərbçilər dayanıb yuxarıdan baxırlar. Görürlər ki, bəli, filan nöqtədə zəiflik var. Bəzən ardıcıl bacarıqsızlıqlar müşahidə olunur. Bu bizim üçün bir təlim məşqi oldu. Düzdür, bizim istəyimizlə baş vermədi, buna məcburən getdik, lakin yaxşı oldu, zəif cəhətlərimizi anladıq. Buna əsasən, bu amallar bizim başımız üzərindədir və onlara sarı hərəkət etməliyik. O zaman bu zəif cəhətlər aradan qalxacaq.

# Aqibət

## Hadisələrin quruluşda həll olunması

Gördünüz ki, ölkə bir dönəmdə çox təyinedici bir siyasi sınaqla üz-üzə qaldı və bəzi dostların işarə vurduğu kimi, quruluş və ölkə hadisələri öz daxilində həll edə bildi. Mən öncə də dedim ki, belə hadisələrin qarşıya çıxması bizim üçün əsla gözləntidən kənar deyil. Yəni daha dəqiq ifadə etmək üçün məhz belə deməliyik: əsla gözləntidən kənar

deyil. Bu qəbildən olan hadisələrin baş verməsi çox böyük ehtimalla gözlənilir. Bunun müxtəlif səbəbləri var; quruluş üçün tanıdığımız missiya, İslam üçün tanıdığımız missiya, İslam Respublikası üçün düşündüyümüz məna, İslam Respublikasının bu otuz ildə özü barədə bizə etdiyi tərif, xalqımızın və gənclərimizin sınaqdan çıxmış sayıqlığı, azadlığın mövcud olması və sair məsələlər bu hadisələri çox da gözlənilməz etmir. İslamın hökmünə əsasən ölkədə bu azadlıq olmalıdır və biz buna inanırıq.

İslam Respublikası bu məsələlərdən daha güclü, daha dərin və daha köklüdür. İslam Respublikası olduqca daha ağır hadisələrlə üzləşmiş və hamısına üstün gəlmişdir. Ya sadəlövh, ya pis və çirkin niyyəti olan, ya da o qədər də pis niyyəti olmayan, lakin sadəlövhlük edən və məsələləri səhv anlayan dörd nəfər İslam Respublikasına qarşı çıxmışdır. Bunlar bizim ölkəmizdə Amerika üçün qırmızı xalça sərə bilməzlər. Bunu bilsinlər ki, İran xalqı möhkəm dayanmışdır.

## 9 Dey (30 dekabr) qəhrəmanlığı

Əmin olun ki, builki 9 dey də tarixdə qaldı, bu da fərqli bir gün oldu. Bəlkə də demək olar ki, indiki qarışıq şəraitdə xalqın bu hərəkəti daha böyük əhəmiyyətə malik idi, daha böyük iş idi. İnsan hadisələr haqda nə qədər fikirləşirsə, Allah-Taalanın qüdrət əlini, vilayət əlini, Hüseyn ibn Əlinin (ə) ruhunu görür. Bu işlər bizim kimilərin iradəsi ilə görülən işlər deyil. Bu, Allahın işidir, ilahi qüdrətin işidir. Mən imamın həssas zamanlarda belə buyurduğunu dəfələrlə söyləmişəm: "Mən bütün bu müddətdə bu hadisələrin arxasında ilahi qüdrət əlini gördüm". O uzaqgörən və agah kişi, o Allah adamı düzgün görmüşdür.

İlin bütün günləri təbii olaraq və öz-özlüyündə eynidir. İnsanlar, bu iradə və mücahidliklər bir günü digər günlərin arasından çıxarıb qabardır, fərqləndirir və digərlərinə bələdçi olması üçün bir bayraq kimi ucaldır. Məhərrəm ayının onu olan Aşura günü öz-özlüyündə digər günlərdən fərqlənmir. Lakin Hüseyn ibn Əli (ə) bu günə can verir, məna verir, onu ərşə ucaldır; İmam Hüseynin (ə) yoldaşlarının mücahidliyi bu günə bu böyüklüyü və əhəmiyyəti bəxş edir. 19 Dey də belədir, builki 9 dey də belədir. Dey ayının doqquzu ilə onu arasında fərq yoxdur, lakin bu xalq birdən-birə bir hərəkətlə 9 deyi fərqləndirir. Bu hərəkət Qumun 19 deyini təşkil edən amillərdən - yəni agahlıqdan, düşməni tanımaqdan, zamanı tanımaqdan və cihada qoşulmaqdan irəli gəlmişdir.

Bütün ölkədə müxtəlif təbəqələrdən olan bu əzəmətli xalq səhnəyə baxır, səhnəni tanıyır. Bu çox böyük və əhəmiyyətli məsələdir. Dey ayının doqquzunun tarixdə qalması buna görədir. Xalq oyaqdır. Sizin ölkənizi qoruyan amil budur, mənim əzizlərim, inqilabınızı qoruyan amil budur; hegemon başçıların İran xalqına hücum cürətini alıb onları qorxudan amil budur. İndi kimlərisə önə çıxarıb təbliğat atəşinə tuturlar, amma həqiqət başqa bir şeydir. Onların həqiqi düşməni İran xalqı, onun imanı və agahlığıdır. Onların həqiqi düşməni gənclərin coşan dini qeyrətidir. Bir zaman çətinliklə olsa da, dözürlər, bunu etməlidirlər də, lakin səhnədə olmaq zamanı səhnəyə çıxırlar.

Ölkəmizin cari hadisələri dünya hadisələrindən ayrı təhlil oluna bilməz. Dünyanın və regionun hadisələri bir-birinə birləşmişdir və bir hissəsi bizim ölkəmizə məxsusdur. Əlbəttə, o hissə əsas hissədir. Səbəb də budur ki, hegemonluq öz işlərinin zəifləməsinin səbəbini burada

görür. Bu bir xalqın və bir cəmiyyətin hansı rolu ifa edə bildiyini göstərir. Bizim böyük imamızın daim İslam ümmətinə müraciət etməsi buna görə idi. Bir xalq oyandıqda hegemonluğun bütün proqnozlarını bu şəkildə poza, onların tikdiyi zavodu, öz hegemon məqsədlərini icra etmək üçün yaratdıqları istehsal xəttini belə zəiflədə, yaxud dayandıra bilər. Görün bütün müsəlman xalqlar meydana atılsalar, nə olar! Görün bütün müsəlman xalqlarda bu agahlıq, bu hazırlıq və fəallıq olsa, dünyada hansı hadisə baş verər! Bundan qorxurlar. Mənim və sizin səsimizin boğulmasını və digər xalqlara çatmamasını istəyirlər; digər xalqların bir xalqın oyanışının və agahlığının dünya hadisələrində nə qədər təsirli olduğunu bilməməsini istəyirlər.

Zamanı tanımaq və ehtiyacı bilmək lazımdır. Kufədə qəlbləri İmam Hüseynə (ə) imanla dolu olan və Əhli-beytə (ə) məhəbbət bəsləyən insanlar vardı, lakin onlar bir neçə ay gec səhnəyə çıxdılar və hamısı şəhid oldular. Allahın yanında mükafatları da var, lakin görməli olduqları iş bu deyildi. Onlar zamanı tanımadılar, Aşuranı tanımadılar, işi zamanında görmədilər. Əgər təvvabin (tövbə edənlər) Aşuradan bir müddət sonra gördükləri işi cənab Müslimin Küfəyə gəldiyi zaman etsəydilər, vəziyyət dəyişərdi, hadisələr başqa məcrada hərəkət edərdi. Anları tanımaq və işi ehtiyac anında görmək çox mühüm məsələdir.

Allaha şükür olsun ki, sizin şuranız bu xüsusiyyətə malikdir. Bunun üçün çoxlu dəlillər də var. Sonuncusu bu 9 dey məsələsidir, ondan qabaqkı 10 il bundan əvvəl baş verən və burada işarə vurulan 23 tir hadisəsidir. O da anın ehtiyacı idi. Bu adi və normal bir iş deyildi. Bütün əzəməti ilə yanaşı 22 Bəhməndə xalqın yürüşü normal və tanınmış bir işdir; baş verməsi gözlənilir və baş verir. Lakin 1999-

cu ilin 23 tiri adi və gözlənilən bir iş deyildi. Bu şuranın o şəraitdə bu işin lazım olduğunu bilməsi, anlaması və yerinə yetirməsi mühüm məsələ idi. Builki 9 dey hadisəsi də belədir. Zamanı tanımaq, ehtiyacı anlamaq, münasib və ehtiyaclı anda meydana atılmaq əsas məsələdir. Mömin belə olmalıdır ki, varlığı təsirli olsun və görməli olduğu görə bilsin. Allaha şükür olsun ki, Təbliğat komitəsinin Əlaqələndirmə şurası bu xüsusiyyətə malik olduğunu göstərmişdir. Həm birinci onillikdə o dövrün müxtəlif hadisələri zamanı - müqəddəs müdafiə dövründə, müqəddəs müdafiədən öncə və sonra, həm də imamın vəfatından sonrakı müxtəlif məsələlərdə. Bunlar bizim tariximizdə uca zirvələr yaratdı. Bu unudulmaz zirvələrdən biri builki 9 dey idi.

2009-cu ilin Aşura günü təhrik olunmuş bir qrup tərəfindən İmam Hüseynə (ə) edilən hörmətsizlikdən iki gün ötməmiş xalq 9 deydə (30 dekabrda) küçələrə çıxıb öz mövqeyini açıq şəkildə ortaya qoydu. Düşmən əlləri və təbliğatı xalqı nəinki dini hisslərindən uzaqlaşdıra bilmədi, hətta bu hisslər günbəgün daha gücləndi və bu inam daha dərinləşdi.

Xalq ən güclü və son zərbəni 9 deydə və 22 bəhməndə vurdu. 22 bəhməndə İran xalqı əzəmətli bir iş gördü; 9 deydə də həmçinin. Xalq öz birliyini nümayiş etdirdi. Siyasi məsələdə hər hansı bir namizədə səs vermiş bütün insanlar düşmənin səhnədə olduğunu, onun çirkin məqsədlərinin nə olduğunu anladıqda əvvəlcə nikbin yanaşdıqları şəxslər haqda da yenidən düşündülər; bildilər ki, inqilabın yolu budur, düzgün yol budur. 22 Bəhməndə xalq hamılıqla və bir şüarla meydana çıxdı. Xalq arasında ikitirəlik yaratmağa çox çalışdılar, amma bacarmadılar və xalq möhkəm dayandı. Bu, xalqın qələbəsi idi. 22

Xordaddan 22 bəhmənə qədər sürən səkkiz ay İran xalqı üçün fəxr və ibrət dolu bir dövr idi. Bu bir dərs oldu, yeni agahlıq yarandı, İran xalqının agahlığında yeni səhifə açıldı. Bu olduqca mühüm bir təcrübədir. Bu təcrübə əsasında hərəkət etməliyik.

## 22 Bəhmən qəhrəmanlığı - hamı üçün höccətin tamamlanması

Əzəmətli və heyrət doğuran İran xalqı!

Möhkəm addımlarınız yorulmasın! İradə və azadlıq bayrağınız var olsun! Allahın salamı olsun güclü iradənizə və misilsiz agahlığınıza! Həmişə ehtiyac anında bədxahlarla qarşıdurmanı haqqın qələbəsi ilə bitirir, izzət və əzəmət nümayiş etdirirsiniz.

Yaradana ürəkdən və candan şükürlər olsun! O, Özünün qüdrət əlini sizin iradənizdə, imanınızda və agahlığınızda aşkara çıxardı, İslam Respublikasının otuz birinci ildönümündə qədim bir xalqın imanına və özünəinamına arxalanan bu quruluşun gücünü və fəallığını düşmənlərə daha artıq göstərdi.

Bir neçə təkəbbürlü və hegemon dövlətin otuz bir illik sınağı və səhvi onları yuxudan oyatmağa, müsəlman İranı ələ keçirmək üçün səyin əbəs olmasını başa salmağa kifayət etmirmi?!

İnqilabın otuz birinci ildönümü bayramında on milyonlarla agah və məqsədli insanın fəallığı bəzən riyakarcasına xalqdan dəm vuran daxili düşmənləri və aldanmışları özünə gətirib onlara əsl Məhəmməd (s) İslamını və xalqın Böyük İmamın düzgün yolundan ibarət olan yolunu və istəyini göstərməyə kifayət etmirmi?! İran xalqının dostları və düşmənləri bilsinlər ki, bu xalq öz

yolunu tutub, qərarını verib, inkişaf və səadətin zirvəsinə çatmaq üçün Allaha və Allahın bəxş etdiyi qüdrətə güvənərək qarşısındakı bütün maneələri ortadan götürəcək. Allahın yardımı və uğuru, eləcə də İmam Mehdinin (ə) duası onların dayağı olsun!

Bu böyük ilahi möcüzənin baş verdiyi və xalqın möhtəşəm fəallığının gözləri qamaşdırdığı builki 22 bəhməndə düşmən və müxaliflər - istər inadkar, istər aldanmış müxaliflər ayrı cür fikirləşmişdilər, başqa plan cızmışdılar, başlarında ayrı hava vardı. Bir müddət öncədən çalışıb inqilabın ictimai dayağının əlamətlərindən olan 22 bəhmən tədbirlərini pozmaq, həm Tehranda, həm də digər şəhərlərdə xalq arasında çaxnaşma yaratmaq üçün işlər görmüşdülər. Bunu proqnoz etmişdilər; deyirdilər ki, 22 bəhməndə İranda daxili müharibə başlayacaq. Görün necə hazırlıq görmüşdülər ki, daxili müharibə gözləyirdilər. Bəziləri belə deyirdilər, bəziləri də 22 bəhməndə İslam Respublikası quruluşu əleyhinə müxalif üz göstərməyə ümidli idilər. Xalqın inqilabdan, İslam Respublikası quruluşundan uzaqlaşdığını və onun qarşısında dayandığını göstərmək istəyirdilər. Belə fikirləşmişdilər, belə hesablamışdılar. İran xalqı öz agahlığı, iradəsi və onların qəlbini oyadan ilahi qüdrət əli ilə bu müxaliflərin hamısının ağzından vurdu və onların hamısına höccəti tamamladı.

## İslam inqilabının həmişəyaşarlığının isbatı

Bu gün inqilabın hərəkət və məqsədləri bizim böyük və hikmətli imamızın ilk gündə təsvir etdikləridir. Bu məqsədlər xalqın fitrəti ilə uyğun olduğuna görə xalq onu

götürdü. Əks təqdirdə, milyonlarla insanın qəlbini bir işə yönəltmək adi iş deyildi. Bir şəxs fitrətlə danışdıqda, Allahdan danışdıqda, fitrətlər ona sarı yönəlir: "Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi".

Qəlbləri bir səmtə yönəldən Allahın qüdrət əlidir; ona görə nəticə belə olur. 22 Bəhməndə İslam inqilabının otuz birinci ildönümü münasibəti ilə küçələrə çıxan cəmiyyət qabaqkı illərdən çoxdur; nəinki azalmamış, zəifləməmiş, hətta çoxalmış və güclənmişdir də. Bu, təbiət qaydalarının əksinədir. Siz suya bir daş atırsınız, orada bir dalğa yaranır. Bu dalğa anbaan kiçilir, azalır və tamamilə itir. Zaman ötdükcə ictimai dalğalar sönür. Bu necə həqiqətdir ki, Kərbəla hadisəsi kimi zaman onu söndürmür və hətta günbəgün daha da qabardır?! O zaman dostların olmadığı və düşmənlə dolu olan quru səhrada Hüseyn ibn Əli (ə) və yoldaşları şəhid olurlar, ailəsi əsir tutulur, onları aparırlar və iş bitir. On-on beş gün ərzində bütün əlamətlərinin itməli olduğu həmin hadisə bu gün əsrlər ötdükdən sonra görün nə qədər parlaqdır. Yalnız müxtəlif ölkələrdə yaşayan milyonlarla şiə arasında yox, yalnız müsəlmanların arasında yox, hətta qeyri-müsəlmanların arasında da Hüseyn ibn Əlinin (ə) adı günəş kimi parlayır, qəlblərə işıq saçır və yol göstərir. İnqilab da belədir. Bu inqilab zaman ötdükcə daha çox həqiqətləri işıqlandırmışdır.

Bu gün də belədir. İmamı görməyən, səkkizillik müdafiə dövrünü görməyən, bakiriləri görməyən, o zaman şəhid olan fədakar şəxsiyyətləri görməyən əziz gənclər o zaman 29 bəhməndə təbrizli gəncin meydana atıldığı, səkkizillik məcburi müharibə dövrü boyu müxtəlif

cəbhələrdə qəhrəmanlıq və fədakarlıq göstərdiyi kimi qüdrətli, güclü və agah şəkildə səhnədədirlər. Bu gün bizim gənclərimiz belədirlər.

Bunun mənası nədir? Nə üçün? Məsələ nədir? Məsələni bu sözün haqlılığında axtarmaq lazımdır: "İnqilab sözü - haqq sözü". Bu, haqqın xüsusiyyətidir: "Xoş bir söz gözəl bir ağac kimidir". Bu, sağlam torpaqda böyüyən təmiz, sağlam və gözəl bir ağacdır; kökü möhkəm, budaqları hündür, meyvəsi də həmişəlikdir, hər bir fəsildə bar verir. Yəni dünyada baş verən bu hərəkətlərin çoxusu kimi bir dəfə istifadə üçün deyil. İnqilab, çevriliş, yaxud digər adlarla hökumətləri dəyişirlər, amma bir dəfə istifadə olunur, qısa bir dövrdən sonra vəziyyət qabaqkı kimi, yaxud ondan da pis olur. Haqq söz belə deyil. Haqq söz qalır.

Düşmən ayrı cür danışır. Bəzi adamlar da düşmənin sözünü deyir və onun dili ilə danışırlar. Bunu anlayıb-anlamadıqlarını Allah bilir, amma onun dili ilə danışırlar, inqilabın öz yolundan yayındığını göstərməyə çalışırlar. Xeyr, əgər yayınsaydı, inqilabın adı və xatirəsi ilə bu qədər insan hərəkətə gəlməzdi, bu qədər iman və duyğu səfərbər olunmazdı. Dünyada da belədir. Bu gün bu inqilabın təsirləri digər müsəlman xalqların qəlbində də duyulur. Bir neçə düşmən dövlətə baxmayın, xalqlar bu inqilabı uca tuturlar, ona hörmət bəsləyirlər, belə bir inqilabın həsrətini çəkirlər. Bunlar haqlılıq əlamətləridir, əbədilik əlamətləridir: "Hər bir fəsildə bar verir".

Mən və siz bu günə qədər Allahın yardımı ilə vəfalı qaldığımız kimi, yenə də vəfalı qala bilərik. Əgər bu vəfalılığı qorusaq, Allah böyük mükafat verəcək. Bu mükafat yalnız dünyaya və ya axirətə məxsus deyil; həm dünya, həm də axirət üçündür. Dünyada izzət, iqtidar, uca

amallara nail olmaq, axirətdə də hər şeydən üstün olan ilahi mükafat və savabdır. Əgər Allah eləməmiş, əhdimizdə zəiflik göstərsək, sadiq olmasaq, yolun ortasında nəfsimizin istəkləri bizi o tərəf-bu tərəfə çəksə, o da bizim öz zərərimizə olacaq. İnqilab öz yolunu davam edəcək. İnqilabı buraxan, düşmənin istəyinə uyğun şəkildə inqilabın qarşısında dayanan şəxslər zərər etdilər. Elə bilməsinlər ki, oturub inqilab əleyhinə təxribat hazırladıqda, danışdıqda, təhrik etdikdə bir şeyə nail olacaqlar. Xeyr, səhv edirlər.

## İran xalqının duruş gətirməsinin isbatı

Əlbəttə, dedik ki, xalq duruş gətirdi. Son nümunəsi də 2009-cu il fitnəsi idi. Xalq müqavimət göstərdi. Seçilmiş prezidentdən başqa namizədə səs verən şəxslər onların önündə durdular. Buna görə 9 deydə və 22 bəhməndə hamı iştirak etdi, hamı gəldi. Bu onu göstərir ki, fitnəkarlar və fitnə törədənlər azlıqdır. Onlar yalan danışıb xalqı öz tərəflərinə çəkmək istədilər. Əvvəldə uğur da qazandılar, sonra həqiqi simaları tanındıqda, müxtəlif söz və işləri ilə niqabları düşdükdə xalq bunlardan üz çevirdi. Buna əsasən, xalq dayanmışdır. Bu, ölkənin vəziyyətinə dair bir məqamdır.

## İslam Respublikasının daha da güclənməsi

Düşmənlərin planlaşdırdığı, sadəlövh və avam insanların da kömək etdiyi hər bir işin nəticəsi İran

xalqının müqaviməti sayəsində İslam Respublikasının daha da güclənməsi olmuşdur.

Siz gördünüz ki, bir fitnə törədildi, işlər görüldü, səylər göstərildi. Amerika fitnəkarları müdafiə etdi, İngiltərə müdafiə etdi, Qərb hökumətləri müdafiə etdilər, münafiqlər müdafiə etdilər, şah tərəfdarları müdafiə etdilər. Nəticə nə oldu? Nəticə bu oldu ki, bütün bu uğursuz birliyin qarşısında bizim əziz və böyük xalqımız 9 deydə və 22 bəhməndə elə əzəmət nümayiş etdirdi ki, dünya məəttəl qaldı. Bugünkü İran, bugünkü gənc, bugünkü ali təhsillilər və bugünkü iranlılar elə vəziyyətdədirlər ki, düşmən İslam Respublikası quruluşu əleyhinə hansı təxribatı hazırlasa, Allahın yardımı ilə qarşısını alacaqlar. Lakin diqqətli olun; gərək təqvalı olasınız. Bizi gücləndirən, toxunulmaz edən, uca məqsədlərə çatana qədər bu yolu davam etdirməyə ümidli saxlayan amil təqvadır.

## İran xalqının agahlığında yeni fəslin açılması

Xalq ən güclü və son zərbəni 9 deydə və 22 bəhməndə vurdu. 22 bəhməndə İran xalqı əzəmətli bir iş gördü; 9 deydə də həmçinin. Xalq öz birliyini nümayiş etdirdi. Siyasi məsələdə hər hansı bir namizədə səs vermiş bütün insanlar düşmənin səhnədə olduğunu, onun çirkin məqsədlərinin nə olduğunu anladıqda əvvəlcə nikbin yanaşdıqları şəxslər haqda da yenidən düşündülər; bildilər ki, inqilabın yolu budur, düzgün yol budur. 22 Bəhməndə xalq hamılıqla və bir şüarla meydana çıxdı. Xalq arasında ikitirəlik yaratmağa çox çalışdılar, amma bacarmadılar və xalq möhkəm dayandı. Bu, xalqın qələbəsi idi. 22

Xordaddan 22 bəhmənə qədər sürən səkkiz ay İran xalqı üçün fəxr və ibrət dolu bir dövr idi. Bu bir dərs oldu, yeni agahlıq yarandı, İran xalqının agahlığında yeni səhifə açıldı. Bu olduqca mühüm bir təcrübədir. Bu təcrübə əsasında hərəkət etməliyik.

Şübhəsiz ki, düşmən xalqı İslam quruluşundan ayırmaqda iflasa uğramışdır. Ötənilki seçkilərdə ölkənin qırx milyon əhalisi iştirak etdi; əslində İslam Respublikası quruluşunun və seçkilərin xeyrinə qırx milyonluq bir referendum keçirildi. Düşməni qəzəbləndirən bu idi. İğtişaşla onun təsirini məhv etmək istədilər, amma bacarmadılar. Xalq fitnənin qarşısında da dayandı. 2009-cu il fitnəsi ölkəni vaksinlədi, xalqı siyasi və ictimai mikroblar əleyhinə hazırladı, xalqın agahlığını artırdı.